DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 10 (384) / OKTYABR 2023-CÜ İL



Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

...Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss etmişəm, bu inam daha da artmışdır. Bu gün vaxtilə - hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər.

...Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev**

Xankəndi şəhərində Azərbaycan Respublikası Dövlət Bayrağının ucaldılması mərasimindəki çıxışından
15 oktyabr 2023-cü il

## “İSLAM MƏDƏNİYYƏTİNDƏ BİRGƏYAŞAYIŞ TƏCRÜBƏSİ” MÖVZUSUNDA II BEYNƏLXALQ SİMPOZİUM KEÇİRİLİB

Səh. 5



## “DÖVLƏT VƏ DİN” İCTİMAİ FİKİR TOPLUSUNUN RƏSMİ İNTERNET SAYTI İSTİFADƏYƏ VERİLİB

Səh. 12



# DQİDK SƏDRİ ANQLİKAN KİLSƏSİNİN DİNİ RƏHBƏRİ İLƏ GÖRÜŞÜB



Oktyabrın 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Dövlət Komitəsinin sədri qonağa ölkəmizdə mövcud olan dini durum, hörmət və etimada əsaslanan birgəyaşayış modeli və DQİDK-nın fəaliyyəti barədə ətraflı məlumat verib. Azərbaycan əhalisinin əksər hissəsinin müsəlman olduğunu qeyd edən Komitə sədri bildirib ki, Azərbaycanda bütün dinlərə bərabər əsaslarda münasibət var. Ölkəmizdə dini etiqad azadlığı tam şəkildə təmin edilir, dünyəvilik və dini dəyərlər arasında ideal tarazlıq mövcuddur. M.Qurbanlı, eyni zamanda ölkəmizdə 37-si qeyri-islam təmayüllü olmaqla 995 dini qurumun dövlət qeydiyyatından keçdiyini, ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədilə mütəmadi olaraq maliyyə yardımının ayrıldığını nəzərə çatdırıb.

DQİDK sədri Azərbaycanda dini təhsilin vəziyyəti barədə məlumat verərək Prezident cənab İlham Əliyevin Sərəncamı ilə yaradılmış Azərbaycan İlahiyyat İnstitutunun bu sahədə ixtisaslaşmış təhsil ocağı olduğunu və peşəkar ilahiyyatçıların, dinşünasların hazırlanması işinə mühüm töhfələr verdiyini qeyd edib.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfər və ötən ay Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirlərinə də diqqət çəkən Mübariz Qurbanlı 30 il erməni silahlı qüvvələrinin işğalı altında olan Azərbaycan ərazilərində dağıdılan mədəni və dini abidələrin bərpası üzrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən genişmiqyaslı işlərin aparıldığını bildirib.

Ölkəmizin nümunəvi dinlərarası dialoq, birgəyaşayış modeli sərgilədiyini qeyd edən Castin Velbin Azərbaycanın dinə sekulyar yanaşmasını müsbət hal kimi dəyərləndirib. Qonaq respublikada qeyri-islam təmayüllü dini icmaların bərabərhüquqlu fəaliyyət göstərməsi üçün bütün lazımi şəraitin yaradılmasının əhəmiyyətini və bu istiqamətdə DQİDK-nın fəaliyyətini xüsusilə vurğulayıb.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ferqus Auld və ölkəmizin Britaniyadakı səfiri Elin Süleymanovun da iştirak etdiyi görüşün sonunda qonağa Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən bəhs edən kitablar təqdim edilib.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ MASALLIDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı oktyabrın 10-da Masallı rayon Heydər Əliyev Mərkəzində Cəlilabad, Yardımlı və Masallı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl DQİDK sədri Mübariz Qurbanlı və Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbula gələn vətəndaşlar dini icmaların kitablarla təmin edilməsi, dini təhsil, dini maarifləndirmə işinin genişləndirilməsi, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.



# DQİDK SƏDRİNİN MÜAVİNİ 30-CU BEYNƏLXALQ HÜQUQ VƏ DİN SİMPOZİUMUNDA İŞTİRAK EDİB

Briqam Yanq Universitetinin Hüquq və Din Araşdırmaları Mərkəzinin rəhbəri Bret Şarfin dəvəti ilə ABŞ-nin Yuta Ştatında səfərdə olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Sahib Nağıyev 1-3 oktyabr tarixlərində "Fikir, Vicdan, Dini etiqad azadlığının qorunması: insan hüquqları bəyannaməsinin 75 illiyi" adlı 30-cu Beynəlxalq Hüquq və Din Simpoziumunda iştirak edib. S.Nağıyev 80 ölkədən 200-dən çox nümayəndə heyətinin qatıldığı simpoziumda çıxış edərək Azərbaycanın nümunəvi dövlət-din münasibətləri, dövlətimizin bu sahədə atdığı uğurlu addımlar, həm yerli, həm də beynəlxalq səviyyədə keçirdiyi əhəmiyyətli tədbirləri diqqətə çatdırıb. Bildirib ki, respublikamızda vicdan və din azadlığının təmin edilməsi əsas istiqamətlərdən biridir. Kifayət qədər həssas bölgədə yerləşməsinə baxmayaraq, ölkəmizdə tolerantlığın və multikulturalizmin qorunması daim diqqət mərkəzindədir. Dini sahə ilə bağlı müvafiq qanunvericilik aktları qəbul olunub, cəmiyyətin demokratik inkişafı ilə həmahəng olaraq onlara əlavə və dəyişikliklər edilməklə müasir dövrün tələblərinə uyğunlaşdırılıb. Qeyd olunub ki, dini qurumların dövlət qeydiyyatına alınması proseduru sadələşdirilməklə yanaşı, din xadimlərinin təyinatı, o cümlədən din sahəsi üzrə kadrların hazırlanması ilə bağlı hüquqi baza yaradılıb. Hazırda Azərbaycanda dövlət qeydiyyatından keçmiş 995 dini qurum fəaliyyət göstərir ki, onlardan 26-sı xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna, digərləri isə müsəlman dini icmalarıdır. Sədr müavini vurğulayıb ki, Azərbaycan hökumətinin dövlət-din münasibətlərinin təmzimlənməsində xüsusi önəm verdiyi məsələlərdən biri də ibadət yerlərinin fəaliyyətinin dəstəklənməsidir. 70 illik sovetlər dövründə mindən çox dini ibadət yeri – məscid, kilsə, sinaqoq dağıdılıb, yaxud təyinatı dəyişdirilərək anbara, kluba çevrilib, 1991-ci ilədək isə yalnız 17 məscidin fəaliyyət göstərməsinə icazə verilib. Dövlət müstəqilliyimizi qazandıqdan sonra bütün ibadət evləri dindarların istifadəsinə verilib, həmçinin yüzlərlə yeni ibadət evi tikilib. Dini təşkilatların, dini təhsil müəssisələrinin fəaliyyətinə dəstək verilməklə yanaşı, Azərbaycan Respublikasının Prezidentinin müvafiq Fərmanı və Sərəncamı ilə Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutu təsis edilib.



S.Nağıyev Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə yaradılan "Bakı Prosesi" platforması çərçivəsində keçirilən tədbirlərə də diqqət çəkib. Hər il Azərbaycanda Qlobal Bakı Forumunun təşkil edildiyini, ölkəmizdə 2016-ci il "Multikuturaizm ili", 2017-ci il isə "İslam həmrəyli ili" elan edildiyini qeyd edib.

# GÜRCÜSTANDA DİN XADİMLƏRİ MƏCBURİ HƏQİQİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRILACAQLAR

Gürcüstanda pravoslav din xadimləri istisna olmaqla, digər dinlərə və dini kastalara ibadət edən din xadimləri həqiqi hərbi xidmətə çağırılacaqlar.

Bu məsələ Gürcüstan Parlamentinin qəbul etdiyi yeni Müdafiə Məcəlləsində əksini tapıb.

Parlamentdə keçirilən gərgin və uzun sürən müzakirələrdən sonra yeni Müdafiə Məcəlləsinin layihəsi üçüncü oxunuşda 80 səslə qəbul olunub.

Gürcüstanın bütün müdafiə sahələrini əhatə edəcək sənəddə çağırışçıların hərbi xidməti yeni qaydada təşkil olunacaq. Sənədə əsasən, çağırışçılar 6, 8 və 11 aylıq həqiqi hərbi xidmətə cəlb ediləcəklər.

Qanun layihəsinə əsasən, din xadimləri də həqiqi hərbi xidmətə cəlb olunacaqlar. Sənəddə deyilir ki, pravoslav din xadimləri istisna olmaqla, bütün digər dini icmaların nümayəndələri məcburi hərbi xidmətə çağırılacaq.

Bundan əlavə, "Qirçi" siyasi partiyasının təsis etdiyi "İncil azadlığı"nın tərəfdarları da hərbi xidmətdən yayına bilməyəcəklər.

Məcburi hərbi xidmətin bir il müddətinə təxirə salınması üçün çağırışçı dövlətə 5 min lari vəsait ödəyəcək.

Qeyd edək ki, hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyası qanun layihəsini 2022-ci ilin dekabrında parlamentə təqdim edib.

Bu təşəbbüs cəmiyyətdə narazılığa səbəb olub, hətta qanuna qarşı etiraz aksiyaları da keçirilib.

# Ümummilli etimad ünvanı



Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin xalqın mütləq əksəriyyətinin səsini qazanmaqla müstəqil Azərbaycan dövlətinin başçısı seçildiyi 2003-cü ilin 15 oktyabrından 20 il ötür. Cənab İlham Əliyevin keçdiyi həyat yolu, ictimai-siyasi proseslərdə fəal iştirakı, idarəetmədə qazandığı təcrübə, intellektual səviyyəsi və müasir dövrün siyasi xadimləri üçün xarakterik olan bütün yüksək keyfiyyətləri mənimsəməsi 2003-cü il oktyabrın 15-də Azərbaycanda keçirilən prezident seçkilərində onun şəksiz qələbəsini təmin etdi. Bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı. Uğurlarının təməlində Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasi kursunun, strateji proqramların, konsepsiyalar və islahatların dayandığı müstəqil Azərbaycan son illər ərzində həm bölgədə, həm də dünyada çox böyük nüfuz qazanmış, sürətli inkişaf edən ölkələr sırasına daxil olmuşdur.

Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılan inkişaf strategiyasını siyasətinin ana xəttinə çevirən, yüksək dövlətçilik və idarəçilik təfəkkürünə malik lider kimi İlham Əliyev ölkənin sürətli tərəqqisini təmin edir. Müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin davam etdirilməsi nəticəsində ölkəmiz bu gün (necə dövlət?) dövlət kimi dünyada böyük nüfuz qazanıb. Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət suveren Azərbaycana şanlı tariximizin ən uğurlu illərini yaşatmaqla onu bütün sahələrdə regionun aparıcı dövlətinə çevirib. Bu gün Azərbaycan uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatların - davamlı və tarazlı inkişafını stimullaşdıran dövlət proqramlarının, ictimai həyatın bütün sahələrini əhatə edən fərman və sərəncamların nəticəsi olaraq dünyanın sürətli inkişaf yolunda olan, qlobal maliyyə-iqtisadi böhrandan uğurla çıxmış dövlətlərdən biri kimi tanınır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində son 20 illik zaman kəsiyi Azərbaycan tarixinin iqtisadi yüksəlişlə başlayıb tarixi Zəfərlə davam edən ən qüdrətli mərhələsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə geridə qoyduğumuz 20 il ərzində ölkəmiz ən şanlı dövrünü yaşadı. Ulu Öndər Heydər Əliyevin xalqa müraciətində səsləndirdiyi fikirlər bir daha öz təsdiqini tapdı: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu sözlər Ümummilli Liderin uzaqgörənliyini və müdrik seçimini ifadə edir. Ulu Öndərin dediyi kimi, Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada söz sahibinə çevrilən ölkələr sırasına daxil olub. Dövlət başçısı kimi fəaliyyətə başladığı ilk dövrdən iqtisadiyyatın şaxələndirilməsini, qeyri-neft sektorunun inkişafını hökumətin qarşısında əsas vəzifələrdən biri kimi qoyan İlham Əliyev ölkəmizin iqtisadi və hərbi qüdrətini, beynəlxalq nüfuzunu gücləndirmək üçün qətiyyətlə çalışır.

Prezidentliyinin ilk ilindən etibarən davamlı inkişaf üçün mühüm addımlar atan İlham Əliyev müstəqilliyimizin, ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinə və vətəndaş həmrəyliyinin bərqərar olmasına dövlətin milli maraqlarını qorumaqla nail oldu. Prezident İlham Əliyev xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirdi və ötən 20 il ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail oldu, insanların rifah halı daha da yaxşılaşdı. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirildi, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirildi. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Prezident İlham Əliyev Azərbaycanın siyasi sisteminə rasional davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi, siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı və milli siyasi etika nümunəsi təqdim etdi.

Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə həm də Heydər Əliyevə, onun siyasi kursuna sadiqliyini nümayiş etdirdi. Bu, xalqımızın Ümummilli Liderə sevgisinin və sonsuz inamının bir daha təsdiqi oldu. Prezident kimi fəaliyyətə başlayan İlham Əliyev andiçmə mərasimində ona göstərilən etimada görə xalqa minnətdarlığını bildirdi, Heydər Əliyev siyasətinə sadiq qalacağını bəyan etdi: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Prezident İlham Əliyevin rəhbərliyi altında son 20 ildə Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizm, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirildi, nəhəng transmilli, energetika layihələri reallaşdırıldı. "Zəngin və qüdrətli Azərbaycan uğrunda" çağırışı ilə milyonları öz ətrafında toplayan İlham Əliyevin yürütdüyü siyasət nəticəsində Azərbaycan demokratik və hüquqi dövlət kimi daha da inkişaf etdi. Prezidentin seçildiyi 20 il müddətinə nəzər saldıqda bir daha şahid oluruq ki, Azərbaycanda kifayət qədər davamlı iqtisadi inkişaf və siyasi sabitlik mövcuddur. Heydər Əliyev siyasətinə söykənərək ölkəmizin uğurlara imza atdığı həmin illər Azərbaycan tarixinin ən parlaq dövrüdür. Azərbaycan Prezidenti fəaliyyətinin bütün sahələrində milli və dövlətçilik maraqlarını öndə saxlayıb, Heydər Əliyev siyasətinə sadiqliyini nümayiş etdirib.

## Xalqa və dövlətçiliyə xidmət

Prezident İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və prosesləri axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət yürüdür. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlət başçısının xalqın qəhrəmanı, Sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir. Vaxtilə müharibə şəraitində yaşayan ölkəmizin bütün sahələrindəki davamlı inkişaf Prezident İlham Əliyevin qarşısına qoyduğu məqsədləri uğurla yerinə yetirdiyini göstərir.

Prezident İlham Əliyev ictimai rəyi nəzərə alır və ölkədəki ictimai-siyasi durumu düzgün qiymətləndirir. Bunlara əsasən də strateji hədəflərini, taktiki gedişlərini, idarəçilik aparatını davamlı təkmilləşdirir və Azərbaycanda misli görünməmiş dəyişikliklərə müəlliflik edir. Prezident İlham Əliyevin gələcəyə baxış konsepti çoxşaxəli olduğu qədər də konkret və məqsədyönlüdür. Bu, yalnız iqtisadi və siyasi aspektləri deyil, həm də milli dəyərlər sistemi olan geniş mənəvi spektri əhatə edir. Cənab İlham Əliyev dövlətin inkişafında müasir dövrün çağırışlarını nəzərə alıb həm də xalqımızın milli identikliyinin sütunlarını möhkəmləndirir.

Prezidentin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişafı davamlı xarakter daşıyır. Siyasətinin əsasında Azərbaycan xalqının maraqlarını müdafiə etməyin vacibliyinin dayandığını söyləyən cənab Prezident xalqın rifah içində, təhlükəsizlik şəraitində yaşaması üçün əlindən gələni edir. Əhalinin rifahının yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində ardıcıl addımlar atır. Ümumi daxili məhsulun artımı, sənaye və kənd təsərrüfatı istehsalının yüksəlməsi, yeni iş yerlərinin açılması, bütövlükdə əhalinin real gəlirlərinin artması kimi faktorlar bunun əyani sübutudur. Prezident İlham Əliyevin apardığı uğurlu sosial siyasət nəticəsində işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm addımlar atılır. Bu sahədə əldə olunmuş nailiyyətlər bir daha sübut edir ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial baxımından aztəminatlı təbəqəsi daim dövlətin diqqət mərkəzindədir. Sosial sahədə büdcə vəsaitlərinin ildən-ilə artırılması da bu sahəyə Azərbaycan Prezidentinin qayğısını bir daha təsdiq edir.

Azərbaycan mütərəqqi yolla inkişaf edir və ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir. Bununla yanaşı, ölkəmizdə zamanın çağırışlarına uyğun olaraq genişmiqyaslı islahatlar həyata keçirilir. Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlara uyğun olaraq həyata keçirilən tədbirlər sosial, iqtisadi və digər sahələri əhatə edən islahatların davamlı xarakter daşıdığını göstərir. Vətəndaşların rifahının yaxşılaşdırılmasını başlıca vəzifəsi hesab edən Prezident İlham Əliyev onların sosial, iqtisadi əmin-amanlıqlarını qoruyan sistemin möhkəmlənməsi üçün cəmiyyətin bütün sferalarında geniş islahatlar aparır.

davamı səh. 4

# ÜMUMMİLLİ ETİMAD ÜNVANI

əvvəli səh. 3

## Tarix yazan Lider

Əsrə bərabər 20 ilin zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı. Prezident İlham Əliyev Vətən müharibəsinin qalibi, Qarabağın xilaskarı oldu. Prezident, Ali Baş Komandan İlham Əliyev öz qüdrətli ordusunu yaratdı, qələbə qazandı və işğaldan azad edilmiş ərazilərimizə səfərlər edərək möhtəşəm Zəfərini bütün dünyaya bəyan etdi. Böyük Qələbə bilavasitə dövlət başçısının mükəmməl siyasi savadı, strateqliyi, güclü təfəkkürü, diplomatik ustalığı, dəmir iradəsi sayəsində əldə edildi. Sadalanan keyfiyyətlər nəticəsində hərb meydanından əlavə, siyasi və diplomatik arenada da üstünlük birbaşa Azərbaycanın tərəfinə keçdi. Hamımız qürurla şahidi olduq ki, İlham Əliyev beynəlxalq KİV vasitəsilə erməni faşizminin mahiyyətini bütün dünyaya göstərdi. Xalqın etimadına, haqq yolunda ədalətə söykənən lider tarixi ədaləti bərpa etdi. Cənab İlham Əliyevin adı möhtəşəm Zəfər qazanan, Azərbaycan torpaqlarını 30 illik işğaldan 44 günə azad edən, ərazi bütövlüyümüzü bərpa edən böyük sərkərdə kimi tarixə düşdü.

Azərbaycan dövləti torpaqlarımızı erməni işğalçılarından azad etməklə bölgədə yeni reallıq yaratdı və 27 il BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan məlum dörd qətnaməsinin tələblərini yerinə yetirdi. Şanlı qələbədən sonra Prezident İlham Əliyevin dediyi kimi, "Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

Üçtərəfli Bəyanatın tələblərinin yerinə yetirilməsi, Qarabağ iqtisadi rayonunda ermənilərin törətdiyi genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, işğaldan azad edilmiş torpaqlarımıza qayıdan dinc əhalinin, bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 2023-cü il sentyabrın 19-da bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılması və uğurla başa çatdırılması nəticəsində Azərbaycanın suverenliyinin tam bərpa edilməsi, ərazilərimizdə qanunsuz məskunlaşmış erməni separatçılarının şərtlərimizi qəbul edərək təslim olmaları qalib ölkəmizin böyük uğuru olaraq hər birimizi qürurlandırır. Bu Zəfər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Silahlı Qüvvələrinin yüksək peşəkarlığını bir daha bütün dünyaya nümayiş etdirdi.

## Dövlət-din münasibətləri: 20 illik zaman kəsiyində

Azərbaycan bu gün davamlı inkişaf yolu keçir və onun əsaslandığı dayaqlar sırasında xalqımızın milli-mənəvi dəyərləri mühüm yer tutur. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan sosial-iqtisadi siyasət, əldə edilən uğurlar, ictimai-siyasi həyatdakı sabitlik din sahəsində də özünü göstərir. Xüsusilə qədim tarixə malik məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük xidmətdir. Prezident İlham Əliyev tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsinə, həmçinin dini ibadət yerlərinin əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayırır. Maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət başçısının sərəncamları ilə son bir neçə ildə görülən silsilə tədbirlər dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisidir. Prezident İlham Əliyevin xalqımızın inanclarına, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətinin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib.

Son illər respublikamız Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və iştirakı ilə sivilizasiyalararası dialoqla əlaqədar çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyi unikal məkana çevrilib. Azərbaycan son on ildə bu sahədə onlarca beynəlxalq və regional konfrans, forum və simpoziumlar təşkil edib, beynəlxalq qurumların toplantılarına evsahibliyi edib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, belə mötəbər tədbirlərin Bakıda keçirilməsi Azərbaycanın qədim dinlərarası ənənələrindən irəli gəlir: "Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlərboyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır..."

Beynəlxalq tədbirlərin keçirilməsi məkanı kimi Azərbaycanın seçilməsi heç də təsadüfi deyil. Bu, hər şeydən əvvəl, Prezident İlham Əliyevin apardığı müdrik siyasət nəticəsində Azərbaycanın beynəlxalq imicinin artması ilə bağlıdır. Bu məsələdə dünyada cərəyan edən hadisələr fonunda ölkəmizdəki ictimai-siyasi sabitlik də mühüm rol oynayır. Fəxrlə deyə bilərik ki, bu gün beynəlxalq aləmdə Bakı şəhəri ilə bağlı iki ifadə tez-tez işlədilir: mədəniyyətlərarası dialoq üzrə Bakı prosesi və tolerantlığın təşviqi üzrə Bakı prosesi. Bakıda toplaşıb bəşəriyyətin qarşısında duran bu və ya digər problemlə bağlı fikir mübadiləsi aparmaq imkanı qazandıran beynəlxalq tədbirlərlə əlaqədar gələn qonaqlar ölkəmizlə əyani tanış olur və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında yaxından iştirak edirlər.

Prezident İlham Əliyev ölkəmizə rəhbərlik etməyə başladığı ilk gündən dini-etnik qrupların nümayəndələrinə həssaslıqla yanaşır, onların problemlərinin həlli üçün bütün lazımi tədbirləri həyata keçirir. Milli-mənəvi dəyərlərin dirçəldilməsinə, o cümlədən yeni ibadət yerlərinin inşasına, mövcud olanların isə əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayıran dövlət başçısının təşəbbüsü ilə son illər tarixi-dini abidələr, ziyarətgahlar bərpa edilib, dini-mənəvi dəyərlərin qorunması istiqamətində silsilə tədbirlər həyata keçirilib. Bu gün Azərbaycan fərqli dinlərin nümayəndələri arasında qarşılıqlı anlaşmanın, qardaşlıq və həmrəylik hisslərinin bərqərar olmasına mühüm töhfəsini verməklə dünya dövlətləri üçün nümunə olmuşdur. Ölkəmizin dünyaya təqdim etdiyi tolerantlıq və birgəyaşayış modeli münaqişələrin və toqquşmaların aradan qaldırılmasına xidmət edən əsas meyarlardan biridir. Dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində ölkəmiz səylərini ardıcıl şəkildə davam etdirir. Azərbaycanda mədəniyyətlərarası dialoq, multikulturalizm, həmçinin dini konfessiyalar arasında qarşılıqlı etimad daha da möhkəmlənib.

Ulu Öndərin dövlət-din münasibətləri sahəsində müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla aparılmasının nəticəsidir ki, Azərbaycandakı dini dözümlülük və tolerantlığın möhkəmlənməsi dini sahədə dövlət siyasətinin uğurlarından biri kimi səciyyələndirilir və bir çox dövlətin üzərində baş sındırdığı "Dünyəvi dövlətdə din siyasəti necə olmalıdır?" sualının əyani cavabı kimi qəbul olunur. Xalqlararası və mədəniyyətlərarası dialoqu, tolerantlıq ənənələrini müasir qloballaşma dövründə daha da inkişaf etdirmək, ona dəstək vermək, bütün insanların gələcəyi naminə dinlərin dialoquna nail olmaq bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu siyasəti son 20 ildə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin milli mədəniyyətin, dini-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması və inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasəti çağdaş dövrün obyektiv reallıqları ilə şərtlənir.

Dövləti layiqincə idarə etmək məharətinə sahib olmaq, bu fəaliyyəti yalnız millətin və dövlətin maraqlarının ödənməsinə yönəltmək, siyasi sələflərdən miras olaraq əldə olunan dövlətçilik potensialını gücləndirmək kimi xüsusiyyətlər yalnız müdrik liderlərə xasdır. Buna görə də tam əminliklə söyləmək olar ki, bu gün Prezident İlham Əliyevin liderliyi dünya miqyasında böyük nüfuz qazanmışdır.

Prezident İlham Əliyevin dövlətə rəhbərlik etdiyi ötən 20 il Azərbaycanın inkişafı baxımından çox məsul və şərəfli dövr kimi tarixə həkk olunub. Bu müddətdə əldə edilən tarixi nailiyyətlər təsdiqləyir ki, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin xalqa son müraciətində "Mən ona özüm qədər inanıram" sözlərinin ifadə etdiyi böyük etimadı yüksək səviyyədə doğruldub.

**Mübariz QURBANLI,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,
YAP İdarə Heyətinin üzvü
*"Azərbaycan" qəzeti*

# KATOLİKLƏR MÜQƏDDƏS PYOTR KİLSƏSİNDƏ DÜNYADA SÜLH ÜÇÜN DUA EDİBLƏR



Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransisk oktyabrın 27-ni dünyada sülh üçün dua, oruc və tövbə günü elan edib.

Papa Fransiskin iştirakı ilə Vatikanın Müqəddəs Pyotr kilsəsində bir saat ərzində katoliklər dünyada sülh üçün dua ediblər. Bütün dinlərə mənsub olanları bu qlobal duaya qoşulmağa dəvət edən Roma Papası insanları müqəddəs torpaqda və Ukraynada, eləcə də digər münaqişə zonalarında ədalətli və davamlı sülhə nail olunması üçün dua etməyə çağırıb.

O, Ukrayna, İsrail və Fələstində baş verənləri ağrı ilə izlədiyini, çoxlu sayda insanın həlak olması və yaralanmasına görə narahatlığını ifadə edib. Həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verən Papa Fransisk girovların dərhal azad olunmasının vacibliyini vurğulayıb.

Roma Katolik Kilsəsinin rəhbəri dinc insanların müharibələrin qurbanı olmasından narahatlığını bildirib, qanlı münaqişələrin dərhal dayandırılmasına çağırış edib.

Qeyd edək ki, Papa Fransisk daha əvvəl Suriyada baş verənlərə görə 2013-cü il sentyabrın 7-ni, Cənubi Sudan və Konqo Demokratik Respublikasında zorakılığa qarşı 2018-ci il fevralın 23-nü, Livandakı faciə ilə əlaqədar 2020-ci il sentyabrın 4-nü, əfqan xalqı ilə həmrəylik üçün 2021-ci il avqustun 29-nu və Ukraynadakı münaqişəyə görə ötən il martın 2-ni dua, oruc və tövbə günü elan edib.

# "İSLAM MƏDƏNİYYƏTİNDƏ BİRGƏYAŞAYIŞ TƏCRÜBƏSİ" MÖVZUSUNDA II BEYNƏLXALQ SİMPOZİUM KEÇİRİLİB



Türkiyədə Kırıkkale Universitetinin İslam elmləri fakültəsi, İslam Ölkələri Tətbiq və Araşdırma Mərkəzi, Azərbaycan İlahiyyat İnstitutu, İndoneziya Sunan Kalijaga Yogyakarta Dövlət İslam Universiteti və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda II Beynəlxalq Simpozium təşkil olunub.

Açılış mərasimində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini Səyyad Salahlı, Kırıkkale bələdiyyə sədrinin müavini Halil Danacı, Kırıkkale Universitetinin rektoru, prof., dr. Ersan Aslan və prorektoru prof., dr. Mehmet Başalan, Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru, dos. Aqil Şirinov və prorektoru, dos. Mirniyaz Mürsəlov, Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) icraçı direktoru, i.f.d. Mehman İsmayılov, Kırıkkale Universiteti İslam elmləri fakültəsinin dekanı, prof., dr. Mövlud Erten, İslam Ölkələri Tətbiq və Araşdırma Mərkəzinin prezidenti, prof., dr. Zekeriya Akman və digərləri iştirak ediblər.

Açılış mərasimində Türkiyə və Azərbaycan şəhidlərinin xatirələri bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib. Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin dövlət himnləri səsləndirilib.

Kırıkkale Universiteti İslam elmləri fakültəsinin tələbəsi Məhəmməd Əmin Coşkunun Qurani-Kərim tilavəti ilə tədbir davam edib.

Simpoziumda açılış nitqi ilə çıxış edən tədbirin Təşkilat Komitəsinin sədri, prof., dr. Şahin Əhmədoğlu bildirib ki, "Fərqli dinlərə, dillərə, irqlərə, rənglərə və etnik quruluşa sahib insanlar dünyada birgə yaşayırlar. Müxtəlif coğrafiyalarda yaşayan insanlar, əsasən, cəmiyyətin onlara aşıladığı həyatı bilir və mənimsəyirlər. İslam dininin məqsədi ağıldan istifadə edən, qanuna və hüquqlara əməl edən, ədalətli, gözəltərbiyəli, fikir azadlığına və yaşamaq hüququna hörmət göstərən, mərhəmətli, bağışlayan insan yetişdirməkdir". Ş.Əhmədoğlu daha sonra vurğulayıb ki, İslam sivilizasiyasının bir parçası olan Türkiyə müsəlman ölkələri arasında strateji mövqeyinə görə mühüm missiyaya malikdir. Məruzəçi belə bir tədbirin Türkiyə ilə dərin tarixi və mədəni əlaqələrə malik olan qardaş Azərbaycanla birlikdə keçirilməsini məqsədəuyğun hesab etdiyini vurğulayıb. Bildirib ki, simpoziumda 14 ölkədən və Türkiyənin müxtəlif universitetlərindən 100-dən artıq alim məruzə ilə çıxış edəcəkdir.

Kırıkkale Universiteti İslam elmləri fakültəsinin dekanı, prof. Mövlud Erten bildirib ki, texnologiyanın inkişafı ilə dünya kiçilmişdir: "Dövlətlər və qitələr arasındakı sərhədlər indi yalnız fizikidir. Ona görə də "birgəyaşayış" dediyimiz ifadə fiziki ölçülərini çoxdan aşmış, onun paradiqması da dəyişmişdir. Məhz bu kontekstdə Rəbbimizin "Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq", – mesajı üzərində daha dərindən düşünməliyik.

Mövlud Erten daha sonra vurğulayıb ki, təcrübə ilə sübut olunur ki, cəmiyyətlər öz gələcəklərini düşünüb bu anlayışla hərəkət etsələr, möhtəşəm və tarixi cəmiyyətlər yarana bilər. İslam sivilizasiyası tarixdə birgəyaşamağın qaydasını, qanununu və modelini ən gözəl şəkildə ortaya qoymuş nümunədir. Birlikdəyaşamanın ilk nümunələrini Quranda, Həzrət Peyğəmbərin dövründə müşahidə edirik. Müsəlmanlar bu nümunələrə əsaslanaraq, tarixdə misli görünməmiş gözəl əməllər və birlikdəyaşama nümunələrini ortaya qoymuşlar.

Tədbirdə çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı Qarabağ müharibəsində Azərbaycana verdikləri dəstəyə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və türk xalqına minnətdarlığını bildirib, hər



iki ölkənin şəhidlərinə Allahdan rəhmət diləyib.

Azərbaycanda müxtəlif dinlərin, fərqli etnik qrupların yüzillərboyu sülh şəraitində, çətin anlarda bir-birinə dəstək verərək yaşadıqlarını müasir və tarixi nümunələrlə izah edən Səyyad Salahlı Azərbaycanda multikultural həyatın 23 müxtəlif ölkədə akademik şəkildə öyrənildiyini və mühazirələrdə izah edildiyini vurğulayıb.

Sədr müavini daha sonra bildirib ki, İslam ölkələrində tarixboyu müxtəlif din və inanclardan olan insanlar sülh şəraitində yaşayıblar. İslam dünyasında fərqli düşüncəli insanların bir yerdə yaşamalarına, fikirlərinə hörmətlə yanaşılmasına böyük əhəmiyyət verilir.

AİI-nin rektoru, dos. Aqil Şirinov tədbir təşkilatçılarına təşəkkürünü bildirib və əlavə edib: "Bildiyiniz kimi, Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasəti, qətiyyətli addımı nəticəsində, Vətənimizin igid oğullarının şücaəti ilə torpaqlarımız düşmən tapdağından azad olundu. Hazırda Qarabağın hər yerində Azərbaycan bayraqları dalğalanır. Millətimiz bu qələbədə hər zaman bizimlə olan Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə Dövlətinə və xalqına minnətdardır. Çanaqqaladan Qarabağadək Türkiyəmizin və Azərbaycanımızın bütün şəhidlərini rəhmətlə yad edirəm".

A.Şirinov daha sonra vurğulayıb ki, Qurani-Kərimdə birgəyaşayışın nəzəri prinsiplərinə rast gəlirik. İslam mədəniyyətinə nəzər saldıqda, beytül-hikmənin Abbasilər dövründə qurulduğunu görürük.

Beytül-hikmənin əsas vəzifələrindən biri də İslam sivilizasiyalarından başqa, elmi və fəlsəfi kitabları, xüsusən də qədim yunan mədəniyyətinə aid kitabları ərəb dilinə tərcümə etmək idi. Bundan əlavə, Əndəlüs nümunəsi ən parlaq amillərdən biridir. Əndəlüs müsəlmanlarla yanaşı, yəhudi və xristianların da İslam mədəniyyətinə töhfə verdiyi bir məkandır. Bu gün İslam dünyasında məzhəblərin toqquşmasını müşahidə edirik. Bunun əsas səbəbi məzhəb kimliyini dini kimlikdən üstün tutmaqdır.



Məzhəblərin olması təbiidir, amma dini kimlikdən üstün tutmaq yanlışdır. Bunlar birgəyaşayış ənənəmiz qarşısında duran ən mühüm problemlərdən biridir. Yaxşı nümunələrimizi də qeyd etməliyik: Türkiyə və Azərbaycan buna ən gözəl misaldır: "Türkiyədə müxtəlif dini və etnik kimliklər bir yerdə yaşayır və onlar Osmanlı dövründən birlikdə ömür sürür, aralarında heç bir problem yoxdur. Eyni zamanda, Azərbaycanda tarixin bütün dövrlərində xalqların birgəyaşayışında problem olmamışdır".

Birgəyaşayış təcrübəsinin İslam sivilizasiyasının mühüm prinsiplərindən biri olduğunu bildirən MDTF-nin icraçı direktoru, i.f.d. Mehman İsmayılov simpoziumun təşkilində əməyi olan hər kəsə təşəkkür edib. Vurğulayıb ki, İndoneziyadan Balkanlara, Afrikadan Rusiyayadək müxtəlif İslam coğrafiyalarını gəzdiyimiz zaman birgəyaşayışın nümunələrinə rast gəlirik.

M.İsmayılov daha sonra vurğulayıb ki, İslam dünyasının zəngin irsinin təbliğinə böyük ehtiyac var. Biz bu dəyərli irsimizi təbliğ etməyə çalışmalıyıq. Araşdırmalarıma əsaslanaraq deyə bilərəm ki, İslamda birgəyaşayış Allah sevgisi və insani dəyərlər üzərində qurulduğu halda, kapitalist Qərb dünyasında birgəyaşayış şəxsi mənafeyə əsaslanır.

Kırıkkale Universitetinin rektoru, prof., dr. Ersan Aslan bildirib ki, ali təhsil müəssisəsi "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda Beynəlxalq Simpoziumun ikincisinə ev sahibliyi edir. Qeyd edib ki, əslində, İslam sivilizasiyasını izah etmək üçün hələ çox yolumuz var: "Biz bu uzun yolun ikinci pilləsindəyik, burada birlikdə nələr etdiyimizi və nə etməli olduğumuzu sual edirik. Bu səbəbdən, bir çox ölkədən olan qardaş və bacılarımızı burada, Universitetimizdə və şəhərimizdə görməkdən və qonaq etməkdən xoşbəxtik".

Rektor bildirib ki, birgəyaşayış, əslində, bizim üçün o qədər də çətin deyildir. Tariximizdə bunun bir çox nümunəsini görə bilərik.

Prof., dr. Ersan Aslan daha sonra vurğulayıb ki, ən parlaq nümunələrdən biri 839-cu ildə qurulan Beytülhikmədir. Rektor bu simpoziumun gənclərə İslam sivilizasiyasında birgəyaşayış ənənəsi haqqında bir çox bilginin çatdırılması üçün önəmli platforma rolunu oynayacağına ümid etdiyini bildirib.

Qeyd edək ki, cəmiyyət, təhsil və İslamın əsas mövzuları çərçivəsində 100-dən çox məruzənin dinlənildiyi simpoziumun keçirilməsində məqsəd – İslam mədəniyyəti kontekstində fərqli din nümayəndələrinin birgəyaşayışı ilə bağlı vəziyyəti müzakirə etmək; müsəlman cəmiyyətləri arasında bu istiqamətdə mövcud təcrübələrdən yararlanmaq və onları təşviq etmək; müvafiq sahə üzrə mütəxəssis və araşdırmaçıların verdikləri töhfələri üzə çıxarmaq, qorumaq və gələcək nəsillərə ötürmək; həmin istiqamətdə elmi, siyasi, ictimai və fərdi tədqiqatların artırılmasına zəmin yaratmaqdır.

# QURANIN YANDIRILMASINA GÖRƏ EKSTREMİZMLƏ BAĞLI İLK HÖKM VERİLİB

İsveçin Linköpinq Birinci İnstansiya Məhkəməsi Quranı yandıran, onu videoya çəkib internetdə yayan şəxsə hökm oxuyub. Bu, İsveçdə etnik və dini ədavətin qızışdırılması maddəsi ilə belə bir hərəkətə görə verilən ilk hökm idi. RİA Novosti xəbər verir ki, məhkum şərti cəza və pul cəzası alıb.

"Etnik və dini ədavətin qızışdırılmasına görə barəsində cinayət işi açılan şəxs 2020-ci ilin payızında Qurani-Kərimi yandıraraq məscidin yaxınlığında qoyduğu musiqili videonu yaydığı üçün bu gün cinayət törətməkdə təqsirli bilinib", - məhkəmənin mətbuata açıqlamasında deyilir.

İsveçin "SVT" telekanalının məlumatına görə, ölkədə ilk dəfədir ki, məhkəmə Quranın yandırılmasını etnik ədavətin qızışdırılması kimi qiymətləndirir. İsveçin "Aftonbladet" qəzeti isə yazır ki, həmin şəxs şərti cəza alıb və ondan "Cinayət Qurbanları" Fonduna 800 kron (təxminən 73 dollar) ödəməsi tələb olunur.

# "MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR"

Oktyabrın 11-13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Göyçay rayonunda "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda üçgünlük regional konfrans keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin Göyçay şəhərindəki abidəsi ziyarət edilib, önünə gül dəstəsi düzülüb.

Rayon hüquq-mühafizə orqanları, idarə və təşkilat rəhbərləri, din xadimləri, eləcə də ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbiri giriş sözü ilə Göyçay Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Natiq Ağayev açaraq, ölkəmizin multikultralizm modelinin dünyada ən mükəmməl örnək kimi qəbul olunduğunu diqqətə çatdırıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda din sahəsindəki durumun sabit qiymətləndirildiyini vurğulayan N.Ağayev qeyd edib ki, bütün bölgələrdə olduğu kimi Göyçayda da məzhəblərarası birlik, həmrəylik mövcuddur.



"Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri sahəsindəki siyasətin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, respublikamızdakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir". Bu fikirləri isə çıxışında Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov deyib. DQİDK-nın sədr müavini bildirib ki, ölkəmizin dinlərarası dialoq və əməkdaşlıq sahəsindəki təcrübəsi beynəlxalq aləmdə yüksək qiymətləndirilir, eyni zamanda Azərbaycanda dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, dinlərarası və məzhəblərarası vəhdətin mövcud olması bu gün müstəqil respublikamızı gücləndirən amillərdən biridir.

Azərbaycan xalqının əsrlər boyu öz milli-mənəvi dəyərlərini yaşatdığını vurğulayan S.Heydərovun sözlərinə görə, vətəndaşlarımız, o cümlədən din xadimləri Vətənə, milli-mənəvi dəyərlərimizə və azərbaycançılıq ideologiyasına bağlı olmalıdırlar.

Milli Məclisin deputatı, Aqrar siyasət komitəsi sədrinin müavini Sabir Hacıyev, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bölgə qazısı Əli Məmmədov çıxışlarında dövlətin dinə və din xadimlərinə qayğısından bəhs ediblər, məscidlərin, ibadət yerlərinin təmir və bərpa olunmasında dövlətin, xüsusən də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndiriblər.

DQİDK-nın sifarişi ilə hazırlanan "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" sənədli filmi nümayiş olunub, eləcə də kitab sərgisi keçirilib.

Regional konfrans işini oktyabrın 12-də davam etdirib.

Din xadimləri, dini icma sədrləri, dindarlar, eləcə də gənclərin iştirak etdiyi tədbiri giriş sözü ilə açan DQİDK sədrinin birinci müavini Səyyad Salahlı son illərdə milli-mənəvi dəyərlərimizin qorunmasında, xüsusilə tolerantlığın və multikultural ənənələrin inkişaf etdirilərək dünyaya çatdırılmasında, Azərbaycanın dünya ölkələri sırasında öz layiqli yerini tutmasında Prezident İlham Əliyevin xidmətlərindən, bu istiqamətdə aparılan dövlət-din siyasətindən bəhs edib. Vurğulayıb ki, hazırda ölkədə dövlət-din münasibətləri ən yüksək səviyyədə tənzimlənməkdədir. Ölkəmizdəki tolerantlıq mühiti və mədəniyyəti Ümummilli Lider Heydər Əliyevin müdrikcəsinə formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq daha da möhkəmlənərək dövlət siyasətinin əsas istiqamətinə çevrilib.

Respublikamızda mövcud olan milli və dini həmrəyliyə də toxunan komitə rəsmisi əlavə edib ki, DQİDK ölkədə dini radikalizmin, ekstremizmin qarşısının alınması, zərərli vərdişlər, İslamın qadınlara münasibəti mövzularında, milli-mənəvi dəyərlərimizin təbliği, ölkədə və ölkə hüdudlarından kənarda multikulturalizmin, tolerantlığın Azərbaycan modelinin dünyaya çatdırılması istiqamətlərində bir sıra maarifləndirici tədbirlər həyata keçirir.



Daha sonra çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin deputatı Məzahir Əfəndiyev bildirib ki, Azərbaycan dünyəvi dövlət olmaqla yanaşı, hər zaman öz milli-mənəvi dəyərlərinə sadiq qalıb. Ölkəmizdə tarixən mövcud olan tolerantlıq ənənələrinin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği dövlətin əsas siyasi prioritetlərindən biri olub. M.Əfəndiyev həyata keçirilən maarifləndirmə xarakterli bu kimi tədbirlərin İslam dininin əsl mahiyyətinin anlaşılmasına, vətəndaşların öz hüquq və vəzifələrini daha dərindən öyrənmələrinə yardım etdiyinə, bu səpkidə keçirilən tədbir və konfransların əhəmiyyətinə diqqət çəkib.

Göyçay Şəhər Ağsaqqallar Şurasının sədri Xəlil Orucov və QMİ-nin səlahiyyətli nümayəndəsi Rəsul Kazımov çıxışlarında ölkədə milli-mənəvi dəyərlərin təbliği, gələcək nəsillərə ötürülməsi işinin daha da səmərəli hala gətirilməsi məqsədi ilə keçirilən konfransların vacibliyinə diqqət çəkərək, sülh və əmin-amanlıq tərəfdarı olan ölkəmizdə hökm sürən sabitliyin təmin edilməsi üçün görülən işlərdən söz açıblar.

Üçgünlük regional konfrans oktyabrın 13-də də öz işini davam etdirib.

Rayonda fəaliyyət göstərən idarə və təşkilatların rəhbər şəxsləri, din xadimləri, ictimaiyyət nümayəndələri, eləcə də gənclərin iştirak etdikləri tədbirdə çıxışına



"Ölkədəki dini durumun sabitliyi, tolerantlığın səviyyəsinin yüksək olması, dini əqidəsinə görə vətəndaşlar arasında heç bir ayrı-seçkiliyin olmaması din mənsublarına öz ibadətlərini sərbəst yerinə yetirməyə, dini bayram və mərasimlərini keçirməyə əlverişli şərait yaradır" sözləri ilə başlayan DQİDK sədrinin müavini Gündüz İsmayılov bildirib ki, ölkəmiz yüz illər boyunca müxtəlif mədəniyyətlərin yanaşı yaşamasına bariz nümunədir. Cənab Prezident İlham Əliyevin təşəbbüsü və göstərişi ilə hər il dövlət-din münasibətlərinin davamlı olaraq təkmilləşməsi, tolerantlıq və mədəni müxtəliflik ənənələrinin təbliği məqsədilə ölkədəki dini qurumlara maliyyə yardımı göstərildiyini xatırladan sədr müavini, bütün bunların cəmiyyətin mənəvi zənginləşməsinə, dost və qarşılıqlı anlaşma münasibətlərinin möhkəmlənməsinə xidmət etdiyini diqqətə çatdırıb. Qeyd edib ki, bütün bunlar həm Azərbaycan hökumətinin din siyasətinin mahiyyətini və miqyasını göstərir, həm də dini qurumların fəaliyyətinin hərtərəfli dəstəklənməsi faktını təsdiqləyir.

Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin Göyçay rayon Gənclər və İdman sektorunun nümayəndəsi Təranə Nuriyeva Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin, o cümlədən ictimai-siyasi həyatdakı sabitliyin dini sahədə də özünü göstərdiyini bildirib. Qeyd edib ki, respublikamızda mövcud dini konfessiyalar arasında hökm sürən tolerant və multikultural münasibətlər xalqımızın təhlükəsiz və rahat həyatının təmin edilməsinin təməl sütunlarından birini təşkil edir.

Mərkəzi Aran Regional Təhsil İdarəsinin Göyçay rayon təhsil sektorunun müdiri Rauf Məmmədov mövzu ilə bağlı fikirlərini bölüşərək regionlarda keçirilən bu tip maarifləndirmə tədbirlərinin önəminə diqqəti çəkiblər. Bildirilib ki, DQİDK tərəfindən tolerant mühitin qorunması və təbliği istiqamətində görülən işlər dini maarifləndirilmə baxımından mühüm əhəmiyyət daşıyır.

Üçgünlük regional konfrans müzakirələrlə yekunlaşıb.

***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda keçirilən üçgünlük regional konfrans növbəti dəfə 25-27 oktyabr tarixlərində Bərdədə baş tutub.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin Bərdə şəhərindəki abidəsi ziyarət edilib, önünə gül dəstəsi düzülüb.

Tədbir Dövlət Himninin səsləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün qorunması və bərpası uğrunda şəhid olanların ruhlarını bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

DQİDK-nın sifarişi ilə çəkilmiş "Müasir çağırışlar və



qarşıda duran əsas hədəflər" mövzusunda videoçarxın nümayişindən sonra tədbiri giriş sözü ilə açan Bərdə RİH-in başçısı Vidadi İsayev bildirib ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda sağlam dövlət-din münasibətləri formalaşıb. Bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva dini sahəyə xüsusi həssaslıqla yanaşırlar. İşğaldan azad olunmuş ərazilərdə dini məbədlərimizin bərpasına dövlət səviyyəsində ciddi önəm verildiyini deyən V.İsayev Heydər Əliyev Fondunun dini və tarixi abidələrin tikinti-təmir işlərində xüsusi rol oynadığını diqqətə çatdırıb.

Məruzə ilə çıxış edən DQİDK-nın sədr müavini Sahib Nağıyev Dövlət Komitəsi tərəfindən ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, dini etiqad azadlığının təmin olunması, müxtəlif dinlərə və məzhəblərə etiqad edən ölkə vətəndaşlarının qarşılıqlı hörmət və əməkdaşlıq ənənələrinin daha da gücləndirilməsi məqsədi ilə silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb. O qeyd edib ki, Bərdə şəhərində təşkil olunan 3 günlük konfrans da bu amala xidmət edir.

Eyni zamanda sədr müavini qeyd edib ki, müasir dövrdə dünyanın müxtəlif bölgələrində baş verən hadisələr mədəni müxtəlifliyi qəbul etməyən, digər din və mədəniyyətlərin nümayəndələrinin adət-ənələrinə, həyat tərzinə, əqidə və düşüncəsinə hörmətlə yanaşılmayan cəmiyyətlərdə davamlı sabitliyə və inkişafa nail olmağın qeyri-mümkün olduğunu göstərir. Bu səpkidə qarşıdurma və münaqişələrin baş verməməsi üçün insanlarda fərqli din mənsublarına hörmət xüsusiyyətləri gücləndirilməlidir. Bu ənənənin qorunması məqsədilə Azərbaycanda bir çox əhəmiyyətli tədbirlər həyata keçirilir.

# "MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR"

Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev dini radikalizm və onun fəsadlarından, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı pozuculuq fəaliyyətlərinin qarşısının alınmasına yönələn tədbirlərdən danışıb.

QMİ-nin bölgə qazısı Ramazan Hüseynov çıxış edərək, ölkədə multikultural mühitin dərin tarixi köklərə malik olduğunu, müxtəlif dinlərin, məzhəblərin, xalqların fikir ayrılığı olmadan, dinc, qardaşlıq şəraitində yaşadığını bildirib. Qeyd edib ki, Azərbaycanda tarixən formalaşan multikultural və tolerant dəyərlər yüksək səviyyədə qorunur.

Tədbir çərçivəsində kitab sərgisi keçirilib.

Oktyabrın 26-da öz işini davam etdirən üçgünlük regional konfransın növbəti günündə idarə və təşkilatların rəhbər şəxsləri, din xadimləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan Bərdə RİH başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri İlham Məmmədov bildirib ki, Ulu Öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət-din siyasətinin əsas məqsədi respublikamızda dinlərarası və məzhəblərarası tolerantlıq mühitini qoruyub saxlamaqdır. İ.Məmmədov qeyd edib ki, hazırda Azərbaycanda, eləcə də Bərdə rayonunda dini sabitliyin hökm sürməsi həmin siyasətin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir.

"Prezident İlham Əliyev sivilizasiyalar, dinlər arasında faydalı əməkdaşlığın, qarşılıqlı etimadın yaradılması üçün mühüm fəaliyyət göstərir". Bu fikirləri isə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı deyib. S.Salahlı bildirib ki, bu sahədəki məqsədyönlü, düşünülmüş siyasətin nəticəsidir ki, tolerantlığın Azərbaycan nümunəsi dünyanın qəbul etdiyi və örnək göstərdiyi modelə çevrilib. Respublikamızda bütün dinlərin və onların mənsublarının bərabər hüquqlu olduğunu qeyd edən DQİDK sədrinin birinci müavini deyib ki, Azərbaycanda tarixən formalaşmış məzhəblərarası birlik və həmrəyliyin yeni mərhələsi kimi müxtəlif məzhəblərin vəhdət halında birgə ibadət etməsi yüksək maraq doğurur. S.Salahlının sözlərinə görə, müasir dövrün çağırışlarını nəzərə alaraq ölkəmizdə dinlərarası həmrəyliyin daha da gücləndirilməsi, dini etiqad azadlığının təmin olunması, dini icmalar arasında qarşılıqlı əlaqələrin yüksək səviyyədə qurulması istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Bərdə rayon Ağsaqqallar Şurasının sədri Yaşar Zamanov, eləcə də QMİ-nin bölgə qazısı Ramazan Hüseynov çıxışlarda milli-mənəvi dəyərlərimizin qorunmasının vacibliyini, həmçinin dini maarifləndirmə işinin əhəmiyyətini diqqətə çatdırıblar. Natiqlər, eyni zamanda gənclər arasında xurafatın, zərərli vərdişlərin, zərərli dini cərəyanların təbliğ etdiyi ideyaların qarşısının alınması istiqamətində görülən işlərdən də bəhs ediblər.

Regional konfrans oktyabrın 27-də din xadimləri, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə davam edib.

Bərdə RİH başçısının müavini – Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri İlham Məmmədov keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətindən söhbət açaraq, yad dini idealogiyaların, dini radikalizm, fanatizmin mənfi təsirləri ilə mübarizədə dini icmaların və din xadimlərinin üzərinə düşən vəzifələrdən bəhs edib.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Fatma Yıldırım diqqəti Ermənistanın Azərbaycan torpaqlarının 30 illik işğalı zamanı şəhər və kəndləri qəsdən dağıdaraq, hər bir mədəni və dini abidəni talan edərək vandalizm aktları törətməsinə çəkib. Deputat, həmçinin hazırda Qarabağ ərazisində aparılan tikinti-quruculuq fəaliyyətindən, tarixi-dini abidələrin bərpası istiqamətində görülən işlərdən danışıb.

"Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun ikinci dəfə hakimiyyətə qayıdışından sonra tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahədə dövlət siyasətinin prioritet istiqamətinə çevrilib". Çıxışına bu sözlərlə başlayan DQİDK sədrinin müavini Gündüz İsmayılov, eyni zamanda dövlət tərəfindən fərq qoyulmadan müxtəlif dini konfessiyalara göstərilən maddi dəstəkdən söhbət açıb. Bildirib ki, mütəmadi olaraq cənab Prezident İlham Əliyevin sərəncamları ilə dini qurumlara maliyyə yardımının göstərilməsi ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsinə, habelə cəmiyyətdə etnik-dini müxtəlifliyin qorunması və multikultural dəyərlərin daha da inkişaf etdirilməsinə səbəb olur. Beynəlxalq və dövlətlərarası münasibətlərdə din amilinin əhəmiyyətindən də bəhs edən G.İsmayılov vurğulayıb ki, dövlətimiz güclüdür və cəmiyyətin mütləq çoxluğu dünyəvilik tərəfdarıdır. Bu baxımdan



dinin siyasiləşdirilməsi cəhdləri yaxın gələcəkdə Azərbaycanda ciddi problemə çevrilə bilməz.

Qarabağ Regional Gənclər və İdman İdarəsinin rəisi Emin Pənahov, Qarabağ Regional Təhsil İdarəsinin müdiri Anar Məcidov mövzu ilə bağlı fikirlərini bölüşərək regionlarda dini maarifləndirmə xarakterli bu tip tədbirlərin keçirilməsinin müsbət nəticələri olduğunu bildiriblər.

Tədbir çərçivəsində maarifləndirici nəşrlərdən ibarət kitab sərgisi keçirilib, "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda sənədli film nümayiş etdirilib.

Üçgünlük regional konfrans müzakirələrlə yekunlaşıb.

# DQİDK YANINDA İCTİMAİ ŞURAYA NAMİZƏDLƏRİN İRƏLİ SÜRÜLMƏSİ VƏ ONLARIN QEYDİYYATI BAŞA ÇATIB

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuraya namizədlərin irəli sürülməsi və onların qeydiyyatı başa çatıb.

İctimai Şura üzvlüyünə aşağıda göstərilən şəxslərin namizədlikləri qeydiyyata alınıb:

1. Aqil Tapdıq oğlu Camal – "Ortaq Dəyərlər" İctimai Birliyinin sədri;
2. Anar Əhməd oğlu Xəlilov – "Sağlam İnkişaf və Maarifləndirmə" İctimai Birliyinin sədri;
3. Çingiz İbrahim oğlu Bayramov – "Dialoq və İnkişaf Naminə" İctimai Birliyinin sədri;
4. Büllur Cavad qızı Məmmədova – "Gənclərin Anti-Narkomaniya" İctimai Birliyinin sədr müavini;
5. Cavid Nadir oğlu Şahverdiyev – "Azərbaycan Demokratik İslahatların İnkişafı Mərkəzi" İctimai Birliyinin sədri;
6. Ceyhun Musa oğlu Musayev – "Jurnalist Ekspert Mərkəzi" İctimai Birliyinin sədri;
7. Elçin Əlişah oğlu Çobanzadə – "Gənclərin Mədəniyyətlərarası Əməkdaşlıq Liqası" İctimai Birliyinin sədri;
8. Elvin Bəhruz oğlu Talışınski – "Elin Səsi" Milli-mənəvi dəyərlərimizin qorunması İctimai Birliyinin sədri;
9. Fərid Tahir oğlu Şahbazlı – "İslahatçı Gənclər" İctimai Birliyinin sədri
10. Fuad Ağası oğlu Əliyev – "Vətəndaş Hüquqlarının Müdafiəsinə Dəstək" Müstəqil Həmkarlar Birliyinin sədri;
11. Məhsəti Əli qızı Hüseynova – "Gənc Diplomatların Peşəkarlığının İnkişafına dəstək" İctimai Birliyinin icraçı direktoru;
12. Nərminə Şərif qızı Qəribova – "Davamlı Turizmin İnkişafına Dəstək" İctimai Birliyinin sədri;
13. Səbuhi Eldar oğlu Abdullayev – "Elm" Gənclərin Sosial-İntellektual İnkişafına Dəstək İctimai Birliyinin sədri;
14. Sevinc Əsgərxan qızı Alızadə – "Zəfər" Şəhid Ailələrinə Dəstək Birliyinin sədri;
15. Seymur Firidun oğlu Əzəmmədov – "Jurnalistlərin İqtisadi Araşdırmalarının Təhlili" İctimai Birliyinin sədri;
16. Tural Qara oğlu Əhmədov – İlahiyyatçı;
17. Şahməmməd Nurulla oğlu Soltanov – "İsmayıllı Yazarları" ədəbi-ictimai birliyinin sədri;
18. Qalib Qadir oğlu Kazımlı – "Sosial İnkişafa Yardım" İctimai Birliyinin sədri.

Qeyd edək ki, DQİDK yanında İctimai Şuraya seçkilər noyabr ayının 17-də saat 11:00-da Dövlət Komitəsinin inzibati binasında keçiriləcək. Məlumat üçün bildirək ki, təmsilçilərinin səsvermədə iştirak etməsini istəyən vətəndaş cəmiyyəti institutları seçki gününə on gün qalanadək, həmin şəxslər barədə zəruri məlumatları (adı, soyadı, atasının adı, təvəllüdü, yaşayış yeri, əlaqə vasitəsi) göstərməklə, seçki komissiyasına müraciət edə bilərlər.

Telefon: (+99412) 437-31-15
E-mail: dk-public@scwra.gov.az

# DÖVLƏT KOMİTƏSİNİN SƏDR MÜAVİNİ SƏYAVUŞ HEYDƏROV İSVEÇ KRALLIĞINDA SƏFƏRDƏ OLUB



İsveç Krallığının Uppsala şəhərində fəaliyyət göstərən "Həyat sözü" Beynəlxalq Kilsəsinin rəhbəri Kristian Okerhelmin dəvəti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (Dövlət Komitəsi) sədr müavini Səyavuş Heydərov 2-6 oktyabr tarixlərində İsveç Krallığında səfərdə olub.

Səfər çərçivəsində sədr müavini paytaxt Stokholm və Uppsala şəhərlərində bir sıra müvafiq dövlət və qeyri-dövlət qurumlarında, həmçinin dini icmalarla görüşlər keçirib.

S.Heydərov 3-4 oktyabr tarixlərində Uppsala şəhərində "Həyat sözü" Beynəlxalq Kilsəsi ilə tanış olub, Kristian Okerhelmlə, Uppsala bələdiyyəsinin komissarı Conas Seqersam, Mərkəzi İsveç Bölgəsinin Baş Komissarı Ceyl Poljarevius, Ansqarskolen İsveç məktəbinin direktoru Maqnus Vesterqard, polislə əməkdaşlıq edən gənc sahə müvəkkilləri - Vlad Virgil və cənab Basemlə görüşüb, həmçinin İmmiqrasiya Departamentinin Uppsala Ofisində görüşlərdə iştirak edib.

Səfər zamanı Səyavuş Heydərov və nümayəndə heyətinin üzvü "Həyat sözü" Xristian dini icmasının sədri Yusif Fərhadov Uppsaladakı Bibliya məktəbində tələbələrlə görüşüblər. Görüşdə tələbələrə Azərbaycanda mövcud dövlət-din münasibətləri, xüsusilə, dini etiqad azadlığının təmin edilməsi barədə ətraflı məlumat verilib. Ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşamasından bəhs edən "Müasir çağırışlar: Dinlərarası birgəyaşayış" adlı sənədli film nümayiş olunub. Auditoriya tərəfindən böyük marağa səbəb olan filmin nümayişindən sonra tələbələrin çoxsaylı sualları cavablandırılıb.

Səfər çərçivəsində keçirilən faydalı görüşlərdən biri Uppsala bələdiyyəsinin komissarı Conas Seqersam, Mərkəzi İsveç Bölgəsinin Baş Komissarı Ceyl Poljarevius ilə baş tutub. Görüş zamanı C.Seqersam və C.Poljarevius Qurani-Kərimin təhqir olunmasını pisləyərək, bu xoşagəlməz hadisənin cəmiyyətdə qarşıdurmaların, dinlərarası münaqişələrin yaranmasına səbəb olduğunu, həmçinin milli təhlükəsizliyə ciddi təhdid yaratdığını vurğulayıblar. Eyni zamanda Azərbaycandakı nümunəvi dinlərarası harmoniyanın əhəmiyyətini qeyd edərək İsveç hökumətinin "Quran yandırma" aksiyalarını dayandırmaq üçün qanuna dəyişiklik edilməsi məsələsini müzakirə etdiyini bildiriblər.

5 oktyabr tarixində isə sədr müavini Həyat Sözü Beynəlxalq Kilsəsinin rəhbərliyi ilə birgə Stokholm şəhərində Azərbaycanın İsveçdəki səfirliyində olub, səfir Zaur Əhmədov Azərbaycan həqiqətləri barədə qonaqları məlumatlandırıb.

Daha sonra nümayəndə heyəti səfir Z.Əhmədovla birgə İsveç Parlamentində Xristian Demokratlar partiyasından olan deputatlar Mikael Oskarson və Hans Eklindlə görüşüblər. Parlamentin binasını ziyarət çərçivəsində Yəhudi soyqırımı ilə bağlı guşəyə baxış keçirilib. Burada S.Heydərov tərəfindən Azərbaycandakı yəhudi dini icmalarının həyat tərzi, onlara göstərilən dəstək diqqətə çatdırılıb.

Görüşlərdə S.Heydərov milli təhlükəsizliyimizin və sabitliyimizin təminatı kimi Azərbaycanda formalaşmış birgəyaşayış ənənəsindən danışıb. O, bildirib ki, ölkədə mövcud olan tolerant və multikultural mühitin daha da möhkəmlənməsinə xüsusi həssaslıqla yanaşan Azərbaycan Prezidenti cənab İlham Əliyev bu ənənəni daha da inkişaf etdirərək dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirib. 44 günlük Vətən müharibəsində, eləcə də Qarabağda həyata keçirilən son lokal antiterror hərbi əməliyyatlarda Azərbaycan xalqının bütün dünyaya birlik, həmrəylik nümayiş etdirdiyini vurğulayıb. Həmçinin azad edilmiş ərazilərdə mənsubiyyətindən asılı olmayaraq, bütün dini abidələrin bərpa və yenidən qurulduğuna diqqət çəkib. Sədr müavini, eyni zamanda hazırda dünyada mövcud olan mənəvi böhrandan çıxış yolu, o cümlədən "yol xəritəsi" kimi Azərbaycanda formalaşmış multikultural, tolerantlıq, birgəyaşayış ənənələrinin qorunub saxlanılmasının, zənginləşdirilməsinin, elmi cəhətdən tətbiq edilməsinin vacibliyinə diqqət çəkib.

Öz növbəsində səfir Z.Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin apardığı uğurlu daxili və xarici siyasətin prioritet istiqamətləri, xüsusən İkinci Qarabağ müharibəsindən sonra davam etdirilən konstruktiv siyasət barədə məlumat verib, eləcə də 24 saatdan az müddətdə həyata keçirilmiş antiterror tədbirlərinin nəticələri, dövlətimiz tərəfindən Qarabağın erməni sakinlərinin hüquqlarının təmin edilməsi, onların reinteqrasiyası, göstərilən humanitar yardımları qeyd edib, artıq orada xidmətlərin göstərildiyini, müvafiq qeydiyyat proseslərinin başladığını diqqətə çatdırıb. Səfir, həmçinin Ermənistanın "Azərbaycanın etnik təmizləmə və soyqırımı aktı törətmək niyyətində olması" barədə absurd fikirlərinin heç bir əsasının olmadığını faktlarla şərh edib, ölkəmizin tarix boyu Ermənistanın azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınların qarşılığında heç zaman mülki əhalini hədəf almadığını vurğulayıb.

Bakıdakı "Həyat sözü" Xristian dini icmasının sədri Yusif Fərhadov da görüşlərdə çıxış edərək ölkəmizdəki qeyri-İslam, xüsusilə xristian icmalarının sərbəst fəaliyyəti, dövlət tərəfindən göstərilən maddi və mənəvi dəstək barədə ətraflı məlumat verib.

Öz növbəsində qarşı tərəf müzakirələr zamanı ölkəmizdə formalaşmış multikulturalizm modeli, dini icmalara göstərilən qayğını yüksək qiymətləndirib, o cümlədən İsveçdə son vaxtlar baş verən islamofobiya hərəkətləri ilə bağlı narahatlıqlarını ifadə ediblər.



Sonda tərəflər arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsi barədə razılıq əldə olunub.

Səfər çərçivəsində həm də "Müasir çağırışlar: birgəyaşayış ənənəsi" (Modern Challenges: Coexistence Traditions) adlı fotoalbom və S.Heydərovun müəllifi olduğu "Din və qlobal təhlükəsizlik" kitabı hədiyyə olaraq təqdim edilib.

Komitə sədrinin müavini Həyat Sözü Beynəlxaq Kilsəsinin mətbuat orqanına Azərbaycan reallıqları və həqiqətləri barədə də geniş müsahibə verib.

***

Təəssüfedici haldır ki, Azərbaycan həqiqətləri haqqında səmərəli müzakirələrin aparıldığı səmimi şəraitdə keçən görüşdən sonra ermənipərəst qüvvələrin təzyiqi ilə İsveç mətbuatında habelə, sosial şəbəkə platformalarında qərəzli məlumatlar yayımlanıb. Bu da bir daha onu sübut edir ki, azərbaycanofob, qərəzli, ikili standartlara əsaslanan yanaşmalar səngimir, ermənipərəst qüvvələr hər vəchlə məkrli niyyətlərini reallaşdırmağa çalışır. Qərb mediasının siyasi korrupsiyaya uğrayan dairələri tərəfindən də Azərbaycana qarşı sistemli dezinformasiya daha da intensivləşib.

Danılmaz faktdır ki, İsveç krallığındakı Səfirliyimizin timsalında beynəlxalq platformada Azərbaycan maraqlarının təşviqi üçün ictimai diplomatiyanın imkanlarından geniş şəkildə istifadə edilir. Zaur Əhmədovun rəhbərliyi ilə Səfirlik əməkdaşları Azərbaycana qarşı qarayaxma yazılarına imza atan Rasmus Canback və onun kimi erməni lobbisindən qidalanan onlarla jurnalist, deputat, ictimai fəallara qarşı informasiya müharibəsinin aparılmasında, onların Azərbaycana qarşı çıxışlarının zərərsizləşdirilməsi istiqamətində yüksək peşəkarlıqla fəaliyyət göstərir, fədakar əmək sərf edir.

Ümumiyyətlə, İsveç səfərini məhsuldar hesab etmək olar. Belə ki, görüşlərdə, yerli mətbuata verilən müsahibələrdə multikulturalizmin və birgəyaşayışın Azərbaycan modeli ictimaiyyətə təqdim olunub, o cümlədən tərəflər arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsi barədə razılıq əldə edilib.

# "MÜASİR ÇAĞIRIŞLAR: BİRGƏYAŞAYIŞ ƏNƏNƏSİ" ADLI FOTOALBOM NƏŞR OLUNUB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən "Müasir çağırışlar: birgəyaşayış ənənəsi" (Modern challenges: coexistence traditions) adlı fotoalbom nəşr olunub.

Nəşrdə Azərbaycanın etnik, dini müxtəlifliyini və cəmiyyətdəki tolerantlığı əks etdirən fotolar öz əksini tapıb. Həmçinin albomda dövlət-din münasibətləri, dinə dövlət qayğısına, eləcə də ölkəmizin qədim tarixə malik tarixi-dini abidələrinə dair şəkillər yer alıb.

İngilis dilində tərtib olunan fotoalbomun əsas məqsədi Azərbaycanda yaşayan ayrı-ayrı xalqlar, dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan yüksək birgəyaşayış mədəniyyəti, dostluq və həmrəylik mühiti barədə dünya ictimaiyyətini bir daha məlumatlandırmaqdır.



# MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİ

*"Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir".*

***Ümummilli lider Heydər Əliyev***

*"Biz Azərbaycanda multikulturalizmi bir həyat tərzi olaraq qoruyur və dəstəkləyirik. Azərbaycan dünyada tolerantlığın, müxtəlif dini və etnik qrupların nümayəndələrinin dinc birgəyaşayışının nümunəsi sayılır".*

***Prezident İlham Əliyev***



Fərqli sivilizasiyalar, fərqli mədəniyyətlər və fərqli düşüncələrin birgə yaşayışını, əməkdaşlığını özünə hədəf seçən, bəşəriyyəti xilas edərək gələcəyə aparan yol bu gün Azərbaycanda mövcud olan nümunələrdən keçir. Müasir Azərbaycan müxtəlif dəyərlərin bir-biri ilə tanış olduğu körpüdür. Tarixi faktlar da sübut edir ki, fərqli dünyagörüşünə, milli-mənəvi dəyərlər sisteminə, dini baxışlara sahib olan xalqların bir-biri ilə dialoq qurmaq, ortaq dil tapmağa çalışmaq kimi nəcib təşəbbüsləri bir çox hallarda bəşəriyyəti fəlakətlərdən, müharibə və toqquşmalardan xilas etmişdir. Təsadüfi deyil ki, müasir dünyada sivilizasiyaların dialoquna, tolerant düşüncə tərzinə, müxtəlif etno-mədəni topluluqların birgəyaşayışına nail olmaq demokratik cəmiyyət qurmağın təməl prinsiplərindən biri hesab olunur. Tarixən başqa millətlərə və səmavi dinlərə, fərqli mədəniyyətlərə dözümlü yanaşması ilə seçilən Azərbaycanda müşahidə edilən tolerantlıq xalqımızın milli-mənəvi dəyərlər sistemindən, düşüncə tərzindən qaynaqlanır. Geostrateji mövqeyinə görə müxtəlif dünyagörüşlərin, milli-mənəvi dəyərlərin, dini-sakral baxışların qovuşduğu bu torpaqlarda yaşayan insanlar birgəyaşayışın təkcə coğrafi deyil, həm də mənəvi təzahürünü, fərqli mədəniyyətlərin dialoqunu öz gündəlik həyatında hiss edir.

Bu gün hər bir azərbaycanlı fəxrlə deyə bilər ki, xalqımız tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən qoruyaraq saxlamış və nəsildən-nəslə ötürmüşdür. Şübhəsiz, bunda dini etiqadın rolu böyük olmuşdur. Təsadüfi deyil ki, günümüzədək gəlib çıxan milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir. Həyatına daxil olan bütün dinlərin, xüsusilə də, İslamın əsl mahiyyətini dərk edən, saflığını qoruyan xalqımız onun insanı paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışmışdır. Hətta insanların yaddaşında ateizm mərhələsi kimi qalan sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışları və adət-ənənələrindən uzaqlaşmamış, əksinə, milli-dini dəyərlərinə daha böyük istəklə sarılmışdır.

Azərbaycanda dinin tarixinə nəzər salsaq, görərik ki, ayrı-ayrı dövrlərdə ölkə ərazisində bütpərəstlik, Zərdüştilik, Yəhudilik, Xristianlıq kimi dinlər yayılmışdır. Qədim İpək Yolunun üzərində yerləşən və Qərblə Şərq arasında körpü rolunu oynayan Azərbaycan torpağı tarix boyu müxtəlif dinlərin qovuşduğu bir məkan olmuşdur. Ölkəmizin tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. VII əsrin əvvəllərində isə Ərəbistan yarımadasında meydana çıxan İslam tezliklə dünyanın böyük bir hissəsinə yayılmış və elə həmin dövrdən başlayaraq İslam dini Azərbaycan xalqının milli düşüncəsində yer alaraq mədəniyyətinin tərkib hissəsinə çevrilmişdir. Demokratikləşmənin ən vacib prinsiplərindən biri milli mənsubiyyətindən, dilindən, irqindən, dini etiqadından asılı olmayaraq, hamının hüquq bərabərliyinin qorunub saxlanılması, adıçəkilənlərə bu azadlıqları hamısının verilməsidir. Azərbaycan da çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Milliyyətindən, dilindən, dinindən, inanclarından, adət-ənənələrindən asılı olmayaraq, bizdə insanların hamısı bərabər hüquqlardan istifadə edir. Əsrlərboyu müxtəlif dinlərin və millətlərin nümayəndələri ölkəmizdə sülh və qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Bu gün də Azərbaycanda tarixən yayılan dinlərin çoxu öz mövcudluğunu saxlamaqda davam edir.

Çoxkonfessiyalı Azərbaycan əhalisinin təxminən 96 faizini müsəlmanlar, 4 faizini xristianlar, yəhudilər, bəhailər, krişnalar və digər dinlərin mənsubları təşkil edirlər. Xristianlığın, demək olar ki, bütün cərəyanları - pravoslav, katolik, lüteran və protestant təriqətləri, eləcə də tarixi Alban kilsəsinin mənsubları olan xristianlar



ölkəmizdə təmsil olunurlar. Ölkənin xristian əhalisi əsasən Bakı, Sumqayıt, Gəncə şəhərlərinin, eləcə də Qax (gürcü pravoslavlar), İsmayıllı, Gədəbəy, Qobustan (molokanlar), Qəbələ və Oğuz (Nic qəsəbəsində və Oğuz şəhərində alban-udilər) rayonlarının əhalisidir. Katoliklər və lüteranlar daha çox Bakı şəhərində yaşayırlar. Hazırda Azərbaycanda 2 mindən çox məscid, 16 kilsə və 7 sinaqoq var. Kilsələrdən 5-i pravoslav (Bakıda 3, Gəncə və Xaçmazda 1), 4-ü gürcü pravoslav (Qax rayonu), 1-i lüteran, 1-i katolik və 2-si alban-udi dini icmasına mənsubdur. Yəhudi sinaqoqlarından 2-si Bakıda, 2-si Oğuzda, 3-ü Quba rayonunun Qırmızı qəsəbəsində yerləşir.

Dünyada yüksək milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus harmoniya yaradır. Bu cür dəyərlərə, milli və yüksək humanist ənənələrə malik olan Azərbaycan həm də multikulturalizm prinsiplərini dünyada yayan nadir ölkələrdəndir. Ölkəmizdə bu sahədə bərqərar olan münasibətlər təsdiq edir ki, multikulturalizm xalqımızın tarix boyu formalaşan milli keyfiyyətidir və bütün dövrlərdə cəmiyyətin yaşam tərzi olmuşdur. Bu gün isə reallıq odur ki, artıq multikulturalizmin Azərbaycan modeli formalaşıb və bu, mükəmməl örnək kimi ölkəmizdəki çoxsaylı fərqli etnik qrupların sülh şəraitində yaşamasına, bərabərhüquqlu fəaliyyətinə tam zəmin yaradır. Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqlara malikdir. Multikulturalizm siyasəti assimilyasiyanı inkar edən inteqrasiyaya aparır. Məhz buna görə də bu siyasəti təkcə siyasi elita deyil, eyni zamanda millətin yüksək vəzifə tutmayan digər nümayəndələri ilə yanaşı, həm də milli və dini azlıqlar da dəstəkləyirlər. Multikulturalizm bir siyasət kimi öz mahiyyəti baxımından tolerantlıqla da sıx bağlıdır. O, müxtəlif mədəniyyətlərin paralel şəkildə yaşamasını qəbul edən tolerant cəmiyyətin başlıca xüsusiyyətlərindən biridir. Tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, xalqları birləşdirən mədəniyyətin formalaşmasına səbəb olur ki, bu da insanların gələcək mədəni birliyi məqsədilə bir mədəniyyətin digər mədəniyyətə inteqrasiya prosesi ilə əlaqədardır.

Multikulturalizmin ölkəmizdə yaranma tarixinə nəzər yetirsək, görərik ki, Sovet İttifaqının dağılması ilə bu regionlarda xaosun hökm sürməsinə baxmayaraq, Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi və titanik səyləri nəticəsində ölkəmizdə tolerantlıq mühiti qoruna bildi, bütün xalqlar arasındakı yüzillərə söykənən dostluq və birgəyaşayış münasibətlərinin ritmi pozulmadı. Həmin dövrdə ölkənin müharibə şəraitində olması, ağır iqtisadi-sosial vəziyyətlə yanaşı, hakimiyyət kürsüsü uğrunda gedən daxili mübarizə onu parçalanma təhlükəsi ilə üz-üzə qoymuşdu. Bu vəziyyət, şübhəsiz ki, dini duruma da təsirsiz ötüşmürdü. Daxili qarışıqlıqdan, yaranmış qeyri-sabit sosial-iqtisadi vəziyyətdən istifadə edən bəzi radikal dini cərəyanların nümayəndələri "xeyriyyəçilik" adı altında Azərbaycanda fəaliyyətə başladılar. Əslində, əksəriyyətinin niyyətinin saf olmadığı, şəxsi və ya qrup maraqlarına hesablandığı bir müddət sonra aydın oldu. Çox keçmədi ki, ölkədə dövlət-din münasibətlərinin hüquqi əsasları formalaşdırıldı. Vətəndaşların dini etiqad və vicdan azadlığı təmin olundu, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı. Ölkədə dini durumun müsbət və münaqişələrdən uzaq məcrada inkişafı üçün əlverişli şərait yarandı. Eyni zamanda, dövlətin din siyasəti respublikamızın milli maraqlarını, onun vətəndaşlarının təhlükəsizliyini təmin etmək, ümumiyyətlə, cəmiyyətdə sabit vəziyyət yaratmaq üzərində kökləndi. Ölkəmiz dünyəvi, demokratik, hüquqi, unitar dövlət olmaqla yanaşı, həm də öz milli-mənəvi dəyərlərinə söykənən dövlətə çevrildi. Uzun illər ibadət ocaqlarının fəaliyyətinə, dini ayinlərin icrasına qoyulmuş qadağalar aradan qaldırıldı, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyuldu. Bu sahədə yerli milli kadrların hazırlanmasına, dini maarifləndirmə işində əsasən daxili potensialdan istifadə olunmasına diqqət yetirilməsi vacib faktora çevrildi. Təbii ki, bütün bunlar Azərbaycan müstəqilliyini bərpa etdikdən bir müddət sonra xalqın təkidi ilə yenidən hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyevin dövlət-din münasibətləri sahəsindəki uğurlarının nəticəsi idi.

davamı səh. 10

# MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİ

əvvəli səh. 9

Bu uğurların əsas səbəbi hər sahədə olduğu kimi, dinlə bağlı siyasətin də təməlindən sağlam, düzgün istiqamətdə qurulmasında idi. Məhz Ümummilli Liderin sayəsində din sahəsində sabitlik təmin edildi, milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişdi, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıldı. Dövlət-din münasibətləri beynəlxalq hüquq normaları müstəvisində tənzimləndi, xalqımız öz milli, dini bayramlarını azad və sərbəst şəkildə qeyd etmək hüququ qazandı. Uzun illər baxımsız qaldığına görə dağılmış ibadət ocaqları yenidən bərpa edilib xalqın istifadəsinə verildi. Dini konfessiyalar arasında dözümlülük mühiti daha da inkişaf etdirildi. Ulu Öndər milliyyətindən, irqindən, dinindən asılı olmayaraq, Azərbaycanda məskunlaşan hər kəsin bütün sahələrdə hüquq bərabərliyinin dövlət tərəfindən təmin edilməsini prinsipial məsələ kimi bəyan etdi: "...Ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik".

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçib və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Birmənalı şəkildə qeyd etmək olar ki, Ulu Öndər Azərbaycan multikulturalizminin siyasi banisidir.

Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi ilə mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına hörmət təmin olundu. Bununla yanaşı, Ulu Öndərin hakimiyyətə gəlməsindən sonra qəbul edilən bir çox qanunda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi.

Azərbaycanın müstəqillik yolunda əmin addımlarla irəlilədiyi ilk illərdə Ulu Öndər Heydər Əliyevin ölkənin vahidliyi və bütövlüyünü təmin etməyin ən uğurlu modeli kimi Azərbaycançılığı dövlət siyasəti halına gətirməsi, həmçinin, XXI əsrin astanasında beynəlxalq miqyasda iqtisadi-siyasi sferada dayanıqlılığı və etibarlı tərəfdaş imici ilə qəbul edilən ölkəmizdə multikulturalizmin dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilməsi Azərbaycan dövlətçilik tarixində imza atılan, dönüş xarakterli uğurlardan sayılır. Çünki Azərbaycançılığın inkişafı multikultural mühitdən kənarda reallaşa bilməzdi. Bir-birini ahəngdar şəkildə tamamlayan bu iki baxış sistemi dövlət maraqları ilə yanaşı, milli-mənəvi dəyərlər, mədəni və etnokonfessional müstəvidə müxtəlifliklər arasında harmonik uzlaşmanı təmin etməsi ilə səciyyələnir. Bu kontekstdə Azərbaycançılıq dövlət siyasətinin strategiyası olaraq Azərbaycan cəmiyyətinin bugününün və gələcəyinin müasir ideoloji qavranması ilə sıx birləşir. Azərbaycançılıq milli ideologiyanın əsası kimi müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi surətdə birliyini təcəssüm edir. O, milli maraqları ifadə edən güclü dövlət hakimiyyətinə və yüksək milli intizama, formalaşan milli özünüdərkə əsaslanır, ən müxtəlif sosial təbəqələrdə anlaşma axtarır, millətin və dövlətin öz potensialından irəli gələn daimi, lakin qeyri-radikal islahatçılığı təbliğ edir. Azərbaycançılıq məfkurəsi multikultural münasibətlərin hakim olduğu Azərbaycan cəmiyyətində və ictimai-siyasi münasibətlərin qeyri-müəyyənliyi ilə diqqəti cəlb edən beynəlxalq aləmdə öz orijinallığı ilə seçilir. Hər iki məfhum bir-biri ilə üzvi vəhdət təşkil edən ideologiya və həyat norması kimi ölkədaxili ictimai-siyasi və sosial-mədəni münasibətlərin tənzimləyicisi və hərəkətverici qüvvəsi qismində çıxış edir, ziddiyyətlər və təlatümlər burulğanında siyasi maraqların diktəsi altında hərəkət edən Qərblə Şərqin qovşağında qərar tutmuş Azərbaycanın alturist düşüncədən qaynaqlanan, bəşəri dəyərlərə ciddi önəm verən, mənəviyyatı və humanist prinsipləri bütün maraqların fövqündə saxlayan davranış tərzində öz aydın ifadəsini tapır.

Məhz etnik-mədəni müxtəlifliklər arasındakı münasibətlərin düzgün tənzimlənməsi işində respublikamızın spesifik sülhsevər siyasətinin nəticəsidir ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş ölkələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu nəinki inkar edə bilmir, üstəlik, bu sosial münasibət və dövlət siyasətinin dünya üçün nümunə olduğunu təsdiqləyirlər. Çünki tarixən Azərbaycan cəmiyyətinə xas olan fərqli mədəniyyət, din, dillərə ehtiram kimi humanist münasibətin dövlət tərəfindən inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyət multikulturalizm fenomenini gerçək mahiyyətinə uyğun şəkildə dünya gündəmində aktuallaşdırıb.



Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin söylədiyi "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, Azərbaycanlıyam!" ifadəsi bu gün hər bir ləyaqətli ölkə vətəndaşının həyat düsturuna çevrilib. Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə ölkəmizi dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək bu gün dövlət siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Hazırda cəmiyyətdə müxtəlif xalqların nümayəndələrinin vahid ailədə dinc və yanaşı yaşayıb işləmələri ölkəmizin əsas mənəvi sərvətlərindən biridir. Azərbaycandakı möhkəm multikultural əsaslara malik olan tolerant mühit müasir inkişafın əsas göstəricilərindəndir. Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq multikulturalizmi ölkəmizdə "normal həyat tərzi" kimi yüksək qiymətləndirir və həmin istiqamətdə inkişafa dövlət səviyyəsində böyük dəstək verir. Bu mənada ölkəmizdə müasir dövrdə multikulturalizmə münasibətdə mövcud həyatın reallıqları ilə aparılan məqsədyönlü dövlət siyasəti bir-birini tamamlayır. Əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycançılıq ideologiyası özündə ölkədəki bütün xalqların və etnik qrupların birliyini və həmrəyliyini ehtiva edir. Görkəmli dövlət xadimi Heydər Əliyevin "Hamımızın bir vətəni var. Bu, Azərbaycandır" ifadəsi ölkəmizdə birlik və həmrəyliyin, millətlərarası münasibətlərin əsasında dayanır. Ölkədə yaşayan bütün xalqlar onların hamısının eyni dərəcədə inandığı və hörmət etdiyi vahid ideologiya - Azərbaycançılıq ideologiyası ətrafında birləşdirmək müstəqil Azərbaycan dövlətinin mühüm nailiyyətidir. Bu müdrik siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yaradıcılıqla və ardıcıllıqla davam etdirilir. Azərbaycandakı sabit və dinamik həyat, inkişaf edən cəmiyyət həmin siyasətin konkret əməli nəticəsidir. Azərbaycanın əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olduğunu vurğulayan cənab İlham Əliyev bildirmişdir ki, Azərbaycan Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüdür: "Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. "Multikulturalizm" sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb. Bunun nəticəsidir ki, bu gün Azərbaycan çox millətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu bizim ən böyük sərvətimizdir və biz tariximizlə fəxr edirik. Biz müxtəlif mədəniyyətləri özündə əks etdirən tarixi abidələrimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri Azərbaycanın qədim şəhəri olan Şamaxıda 743-cü ildə inşa edilmişdir. Bununla yanaşı, ən qədim kilsələrdən biri - qədim Qafqaz Albaniyası dövrünə aid kilsə də məhz Azərbaycanda, daha bir qədim şəhər olan Şəkinin yaxınlığında yerləşir. Hökumətimiz məscidlərin, pravoslav və katolik kilsələrinin, habelə sinaqoqların inşası və təmirinə maliyyə vəsaiti ayırır. Bu, bizim siyasətimiz və həyat tərzimizdir. Əsrlər boyu Azərbaycan ölkəmizdə mövcud olan siyasi və sosial vəziyyətə baxmayaraq, bu sərvəti qoruyub saxlamışdır".

Ölkəmizin bu sahədə qazandığı mükəmməl təcrübə artıq dünyanın öyrəndiyi modeldir. Azərbaycan Respublikasının Konstitusiyasına görə, dinindən, irqindən, eləcə də dilindən asılı olmayaraq, hər bir vətəndaşın hüquqları və azadlıqları qorunur. Respublikamızda yaşayan hər bir etnik azlığın və hər bir xalqın təmsilçilərinin mədəniyyəti, mənəvi dəyərləri müxtəlif qanunlar və normativ-hüquqi aktlarla təsbit olunur. Din, etiqad azadlığı Azərbaycanda tam şəkildə təmin edilir. Ayrı-ayrı etnosların, millətlərin və xalqların, dinlərin və konfessiyaların, mədəniyyətlərin nümayəndələri burada mehriban, dostluq, qardaşlıq mühitində yaşayırlar. Azərbaycan Respublikasının dövlət siyasəti müxtəlif millət, etnik qrup və dini azlıqların birgə yanaşı yaşaması və dözümlülük prinsipləri əsasında qurulmuşdur. Milli və dini zəmində münaqişələrin artdığı bir dövrdə əsrlər boyu tolerantlığı ilə nümunə olan Azərbaycan ölkə daxilinə yönəlik fəaliyyətin hüdudlarını aşaraq ölkə xaricində yeni hədəfləri müəyyənləşdirir. Azərbaycan hökuməti tolerantlıq, multikulturalizm, dinlər və mədəniyyətlərarası dialoq sahəsində onlarla beynəlxalq və regional konfrans, forum və simpoziumlar keçirir, beynəlxalq qurumların toplantılarına ev sahibliyi edir.

Təsadüfi deyil ki, bu gün ölkəmiz mədəniyyətlərarası və dinlərarası dialoqun reallaşmasında mühüm rol oynayan dövlətlərdən birinə çevrilmişdir. Azərbaycanda tolerantlıq mühiti hər zaman ən yüksək səviyyədə olduğu üçün burada multikulturalizm, millətlər və dinlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş bey-

davamı səh. 11

# MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİ

əvvəli səh. 10

nəlxalq səviyyəli tədbirlər, elmi konfranslar keçirilir. Prezident İlham Əliyevin 2008-ci ildə mədəniyyətlərarası və dinlərarası dialoqun qurulması istiqamətində əsasını qoyduğu "Bakı prosesi" bu sahəyə diqqət göstərən dövlətlərin önəm verdiyi platformaya çevrilmişdir. Proses çərçivəsində Azərbaycanın paytaxtı 4 dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi etmişdir. "Bakı prosesi" çərçivəsində bugünədək keçirilmiş və bundan sonra da mədəniyyətlərarası və dinlərarası münasibətlərin tənzimlənməsində dialoqun təşkili, təbliği yolunda keçiriləcək tədbirlər mədəniyyətlərin toqquşmasından və milli ədavətlərdən əziyyət çəkən cəmiyyətlər üçün çıxış yolu tapmaqda olduqca faydalı platformanın əsasını təşkil edir. Bu proses çərçivəsində keçirilən Dünya dini liderlərinin II Bakı sammiti dövlətimizin beynəlxalq arenada sülməramlılığın tərəfdarı, tolerant və multikultural ənənələrin, ümumbəşəri dəyərlərin və mütərəqqi ideyaların müdafiəçisi olduğunu bariz şəkildə bir daha göstərmiş oldu.

Respublikamızda dini dözümlülüyün, dini müxtəlifliyin, milli və dini tolerantlığın, multikuturalizmin, milli-mənəvi dəyərlərin inkişafında və təbliğ edilməsində Heydər Əliyev Fondunun da əvəzolunmaz xidmətləri vardır. Fond xaricdə bu istiqamətdə həyata keçirilən bir çox layihənin müəllifidir. Fondun Parisdə, Moskvada, Berlində, Romada, Vatikanda təşkil etdiyi tədbirlər ölkəmizin multikulturalizm modelinin təbliğində mühüm rol oynayıb.

Multikulturalizmin müxtəlif modellərinin - ABŞ, İsveç, Avstraliya, Kanada - olmasına baxmayaraq, Azərbaycanın dünyaya təqdim etdiyi model bir çox mütərəqqi dövlət tərəfindən rəğbətlə qarşılanır və nümunə kimi tətbiq edilir. Bu model tarixi köklərə bağlı olduğu üçün daha dayanıqlıdır.

ABŞ-ın Yuta və Oreqon ştatlarının Senat və Nümayəndələr Palataları tərəfindən Azərbaycanın tolerantlıq modelini təqdir edən geniş bəyannamənin qəbul edilməsi qeyd edilənlərə bariz nümunədir. Bu gün multikulturalizmin alternativi yoxdur və mənəvi dəyərlər baxımından ölkəmizin bu sahədə liderə çevrilməsi və dünya xalqları üçün əvəzsiz nümunə kimi qəbul olunması qürurvericidir. Azərbaycanda yaşayan bütün xalqların və etnik qrupların nümayəndələrini bu gün müstəqil respublikamızın hər bir sahəsində - siyasətdə, iqtisadiyyatda, təhsildə, humanitar həyatda, bir sözlə, bütün sahələrdə görmək mümkündür. Multikultural təhlükəsizlik prinsipləri Azərbaycan kimi kiçik, amma qədim kökə və tarixə malik ölkələr üçün digər təhlükəsizlik doktrinalarının prinsipləri qədər vacib və zəruridir.

Milli-mənəvi dəyərlərimizin qüdrətli mühafizəçisi ölkə başçısı İlham Əliyev Ulu Öndərin əsasını qoyduğu müasirlik və dini-mənəvi dəyərləri uzlaşdıran din siyasətini layiqli şəkildə davam etdirir. Ölkə başçısı İslamın müqəddəs bayramları münasibətilə ölkəmizdəki müsəlmanlara, Pasxa, Milad bayramları münasibətilə pravoslav xristian icmasına, yəhudi vətəndaşlarının Yeni il bayramı Roş-Ha-Şana münasibətilə yəhudi icmasına təbriklər ünvanlayır. Azərbaycan Respublikasının Prezidenti Ramazan ayında təşkil olunan iftar süfrəsində ölkədə fəaliyyət göstərən müxtəlif konfessiya rəhbərləri ilə birlikdə əyləşir, ölkədə inşa olunan yeni ibadət yerlərinin açılışında iştirak edir, din sahəsində təşkil olunan konfransları dəstəkləyir.

Azərbaycan üçün əsas mühüm xüsusiyyətlərdən biri isə ondan ibarətdir ki, bu ölkə bütün İslam aləmində dünyəvi dövlətçiliyin nadir modellərindən biridir. Heç şübhəsiz ki, multikultural cəmiyyətin formalaşmasında və multikultural mühitin dəstəklənməsində aparıcı rol dövlətə məxsusdur. Beləliklə, multikulturalizm bu gün Azərbaycanda gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Bu çərçivədə keçirilən tədbirlər isə ölkəmizdə multikultural təhlükəsizliyin intellektual göstəricilərinin artıq formalaşdığını təsdiqləyir.

**Amil CAVADOV,**
Azərbaycan Respublikası Dini Qurumlarla
İş üzrə Dövlət Komitəsinin Aparat rəhbəri
"Yeni Azərbaycan" qəzeti

# "GƏNC NƏSLİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR RUHUNDA TƏRBİYƏSİ"

19-20 oktyabr tarixlərində Balakən rayonunda "Gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda ikigünlük seminar-treninq keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Elm və Təhsil Nazirliyi (ETN) ilə birgə təşkil etdiyi seminar-treninqin məqsədi gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi üçün onlarla işin qurulması istiqamətləri, xüsusilə yuxarı sinif şagirdləri arasında bu dəyərlərin təbliğ olunması metodları, dinə aid mövzuların şagirdlərə çatdırılması üsulları və bu kimi digər mövzular ətrafında fikir mübadiləsinin aparılmasıdır.

Seminar-treninqdə Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ rayonlarında yerləşən məktəblərin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, Həyat bilgisi, tarix, Azərbaycan dili və ədəbiyyat fənlərini tədris edən müəllimlər iştirak ediblər.

Öncə Azərbaycanın dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyev və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Balakən rayonu üzrə təhsil sektorunun müdiri Elvin Mustafayev və sektorun digər əməkdaşı Sevinc İbadova DQİDK ilə ETN-in əməkdaşlığının vacibliyindən bəhs edib və birgə görülən işlərin effektivliyini qeyd ediblər.

Daha sonra DQİDK-nın Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova Azərbaycan cəmiyyətinə yad olan dini cərəyanlar, xüsusilə, məzhəbçi və radikal qrupların fəaliyyəti, onlara qarşı mübarizənin vacibliyi və bu istiqamətdə DQİDK tərəfindən həyata keçirilən layihələr barədə geniş məlumat verib. E.Kərimova, həmçinin yeniyetmə və gənclərin zərərli ideologiyaların təsiri altına düşməmələri, radikalizm, məzhəbçilik, xurafat kimi neqativ meyillərdən uzaq olmaları üçün məktəblərdə geniş təbliğat işlərinin aparılmasının zəruriliyinə toxunaraq sözügedən sahədə pedaqoji heyətin üzərinə düşən məsuliyyətdən danışıb.



Azərbaycan İlahiyyat İnstitutunun İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova çıxışında gənc nəslin radikalizmin təsirlərindən qorunmasında milli-mənəvi dəyərlərin roluna diqqət çəkib. Gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasında təhsil müəssisələrinin rolunu vurğulayaraq bu istiqamətdə ümumtəhsil məktəblərinin üzərinə düşən vəzifələrdən söz açıb. E.Əzizova həyat bilgisi, tarix, Azərbaycan dili və ədəbiyyat fənlərinin tədris proqramlarındakı milli-mənəvi dəyərlərimiz, həmçinin dinlər, xüsusilə İslamla bağlı mövzuların şagirdlərə düzgün izah edilməsi, bu mövzularda mümkün sualların cavablandırılması istiqamətində tövsiyələrini müəllimlərin diqqətinə çatdırıb.

Daha sonra iştirakçılar arasında müzakirə, praktiki məşğələlər və qrup işləri həyata keçirilib. Müəllimlər məktəbdə tədris etdikləri fənn çərçivəsində şagirdlərə milli-mənəvi dəyərlərin necə öyrədilməsi barədə öz fikir və təkliflərini bölüşüblər.

İkigünlük seminar-treninqdə həmçinin DQİDK-nın sifarişi ilə çəkilmiş "Azərbaycan gəncliyi və mənəvi dəyərlər" sənədli filmi nümayiş olunub.

***

Bu qəbildən olan daha bir seminar-treninq 26-27 oktyabr tarixlərində Gəncə şəhərində baş tutub.

Göygöl, Samux, Daşkəsən, Goranboy rayonlarında və Gəncə, Naftalan şəhərlərində yerləşən məktəblərin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, Həyat bilgisi, tarix, Azərbaycan dili və ədəbiyyat fənlərini tədris edən müəllimlər üçün təşkil edilən seminar-treninqdə Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin Gəncə şəhər təhsil sektorunun müdiri Nərgiz Həsənova, DQİDK-nın Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova, Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Həsən Məmmədov, Azərbaycan İlahiyyat İnstitutunun İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova iştirak ediblər.

Seminar-treninqdə çıxış edənlər gənclərin mövhumat və xurafatdan doğan radikalizmin təsirlərindən qorunmasında milli-mənəvi dəyərlərin roluna və bu dəyərlərin formalaşmasında ümumtəhsil məktəblərinin üzərinə düşən vəzifələrə diqqət çəkiblər. Bildirilib ki, yeniyetmə və gənclərin zərərli ideologiyaların təsiri altına düşməmələri, radikalizm, məzhəbçilik, xurafat kimi neqativ meyillərdən uzaq olmaları üçün məktəblərdə geniş təbliğat işlərinin aparılması zəruridir. Eyni zamanda qeyd edilib ki, təhsil prosesində milli-dini dəyərlərin öyrənilməsinin məhz azərbaycançılıq konsepsiyasına əsaslanması, millətimizə xas olmayan yad elementlərə imkan yaradılmaması, dini radikalizm və ekstremizmin cəmiyyət üçün çox ciddi fəsadlar törədə biləcəyinin şagirdlərə məqsədəuyğun şəkildə izah edilməsi olduqca önəmlidir.

Seminar-treninqdə iştirakçılar arasında müzakirə, praktiki məşğələlər və qrup işləri həyata keçirilib. Müəllimlər məktəbdə tədris etdikləri fənn çərçivəsində şagirdlərə milli-mənəvi dəyərlərin necə öyrədilməsi barədə təcrübə və təkliflərini bölüşüblər.

Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş "Azərbaycan gəncliyi və mənəvi dəyərlər" sənədli filmi nümayiş olunub.

# HİNDİSTAN XARİCİNDƏKİ ƏN BÖYÜK HİNDUİST MƏBƏDİ NYU-CERSİDƏ AÇILIB

"Hürriyet Dailynews"un verdiyi xəbərə görə, Hindistan xaricindəki ən böyük hinduist məbədi Nyu-Cersinin mərkəzində - Robbinsvildə açılıb.

Məbədi bəzəyən heykəlləri təşkil edən 2 milyon kub fut daşın əl ilə oyulmasına sənətkarlar və könüllülər təxminən 4,7 milyon saat vaxt sərf etməli olublar.

İtaliyadan dörd növ mərmər və Bolqarıstandan əhəngdaşı əvvəlcə Hindistana, oradan isə dünya ətrafında 8000 mildən çox məsafə qət edərək Nyu-Cersiyə gətirilib. Sonra işlənmiş daşlar nəhəng pazl kimi birləşdirilərək müasir dövrdə Hinduizmin Hindistandan kənarda tikilmiş ən böyük məbədi kimi təqdim edilib. 126 hektar ərazidə yerləşən məbəd oktyabrın 16-da ictimaiyyətə açılıb.

Dünyanın ən böyük məbəd kompleksi ilk dəfə XII əsrdə Kambocanın Krong Siemreap şəhərində tikilmiş və Kral II Suryavarman tərəfindən hind tanrısı Vişnuya həsr edilmiş Ankqor-Vat məbədidir. Hazırda hinduist-buddist məbədi kimi təsvir edilən Ankqor-Vat UNESCO-nun 1199 Ümumdünya İrsi obyektlərindən biridir.

Robbinsvil məbədi Boçasanvasi Şri Akşar Puruşottam Svaminarayan Sanstha və ya hinduist Svaminarayan icması daxilində fəaliyyət göstərən, beynəlxalq dini və vətəndaş təşkilatı olan BAPS tərəfindən tikilmiş çoxsaylı məbədlərdən biridir. Dünya üzrə 1200-dən çox məbəd və 3850 mərkəzə nəzarət edən Svaminarayan icması gələn il Şimali Amerikada 50 illik yubileyini qeyd edəcək.

# MƏSCİDLƏRƏ TƏYİN OLUNAN DİN XADİMLƏRİNİN TƏHSİLİ İLƏ BAĞLI STATİSTİK TƏHLİL APARILIB



"İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası"na əsasən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi ilə bağlı 3 müsahibə keçirilib. Dövlət Komitəsinin Dini təhsil şöbəsi müsahibədən keçərək təyinat alan şəxslərin təhsili ilə bağlı statistik təhlil aparıb. Həmin təhlilin nəticələrinə əsasən, müsahibələrdən uğurla keçmiş şəxslərdən 177 nəfər İslam dininə aid ibadət yerlərinə (məscidlər) imam, imam müavini və qadın dini ayinlərin icraçısı kimi təyinat alıb. Onlardan 46-sı imam, 101-i imam müavini, 12-si dini ayinlərin icraçısı-müəzzin, 18-i qadın dini ayinlərin icraçısı vəzifəsinə təyin olunub.

Təyinat almış şəxslərdən 159-u kişi, 18-i qadındır. Onlardan 163 nəfər ölkə daxilində, 14 nəfər isə ölkə xaricində dini təhsil almış şəxslərdir. Təyinat almış din xadimlərinin 131-i ali dini, 46-sı isə orta ixtisas dini təhsil alıblar. Ölkə daxilində ali dini təhsil almış şəxslərin 99 nəfəri Bakı İslam Universiteti, 12-si Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi, 8-i Azərbaycan İlahiyyat İnstitutu, 1-i Qafqaz Universitetinin İlahiyyat fakültəsinin məzunlarıdır. Orta ixtisas dini təhsili almış şəxslərdən 17-si Əliabad İslam Kolleci, 14-ü Xosrov İslam mədrəsəsi, 8-i Şəbnəm İslam Kolleci, 7-si Şəki Pedaqoji Texnikumu (Milli əxlaq və islamşünaslıq ixtisası), 1-i Lənkəran İslam Kollecini bitirib.

Vəzifəyə təyin olunan din xadimlərindən 5-i Türkiyə (3 nəfər Ərciyəs Universitetinin İlahiyyat fakültəsi, 1 nəfər Marmara Universitetinin İlahiyyat fakültəsi, 1 nəfər Səlcuq Universitetinin İlahiyyat fakültəsi), 3-ü Rusiya Federasiyasının Dağıstan Respublikası (1 nəfər Buynaksk İslam Universiteti, 2 nəfər Dağıstan İslam Universiteti), 5-i İran İslam Respublikası (Əl-Mustafa Universiteti), 1-i Misirdə (Əl-Əzhər Universiteti) ali dini təhsil almış şəxslərdir.

**Elnarə Kərimova**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
Dini təhsil şöbəsinin müdiri

# QADIN DİNİ AYİNLƏRİN İCRAÇILARINA YÖNƏLİK MAARİFLƏNDİRİCİ TƏDBİRLƏRƏ START VERİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (Dövlət Komitəsi) tərəfindən qadın dini ayinlərin icraçılarına yönəlik maarifləndirici tədbirlərə start verilib.

"İnsan həyatında təhsilin rolu" mövzusunda ilk maarifləndirici onlayn görüş Dövlət Komitəsi tərəfindən təyinat almış qadın dini ayinlərin icraçılarının iştirakı ilə oktyabr ayının 5-də baş tutub.

Tədbirdə məqsəd təhsilin cəmiyyətin inkişafında, insanların rifahının yüksəldilməsində, sağlam gələcəyin qurulmasında mühüm rolunu nəzərə alaraq, gənclərimizin, xüsusilə qızların təhsilli olmaları, eyni zamanda qız uşaqlarının təhsildən yayındırılması və erkən nikah kimi problemlərin qarşısının alınması istiqamətində qadın dini ayinlərin icraçılarına tövsiyə və təlimatların verilməsi olub.

Dövlət Komitəsinin Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova tədbirin əhəmiyyətindən danışıb və bu qəbildən




görüşlərin silsilə xarakterli olacağını bildirib. Tədbirdə təhsilin insana qazandırdığı bilik və bacarıqlardan, xurafatla mübarizədə təhsilin gücündən, qadın dini ayinlərin icraçılarının bu istiqamətdə görə biləcəyi işlərdən bəhs edilib. Qeyd olunub ki, dini icmalar, xüsusilə qadın dini ayinlərin icraçıları istər məscidlərdə, istər məsciddən kənar keçirilən mərasimlərdə, görüşlərdə, söhbətlərdə təhsilin əhəmiyyəti, qız uşaqlarının təhsilinin vacibliyi və erkən nikah hallarının qarşısının alınması, xurafatla mübarizədə geniş təbliğat işi apara bilərlər.

Azərbaycan İlahiyyat İnstitutunun müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru İradə Tağıyeva da mövzunun aktuallığına toxunaraq, təhsilin əhəmiyyəti, prinsipləri, faydaları və qadın dini ayinlərin icraçılarının bu mövzu ətrafında maarifləndirici söhbətlər aparmalarının zəruriliyini vurğulayıb. Həmçinin İslamda təhsil hüququ və qadının təhsilinə verilən önəmdən bəhs edib.

Gələcəkdə xurafatla mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği kimi mövzulara bağlı söhbətlərin planlaşdırıldığı diqqətə çatdırılıb.

Məruzələrdən sonra görüş iştirakçıları ilə fikir mübadiləsi aparılıb.

# "DÖVLƏT VƏ DİN" İCTİMAİ FİKİR TOPLUSUNUN RƏSMİ İNTERNET SAYTI İSTİFADƏYƏ VERİLİB

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) elmi nəşri olan "Dövlət və Din" ictimai fikir toplusunun 2023-cü ildə ikinci sayı dərc olunub və jurnalın rəsmi internet saytı istifadəyə verilib.

"Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 1589 nömrəli Fərmanına əsasən "Dövlət və Din" ictimai fikir toplusu bu ildən elektron jurnal formatına keçib.

Qeyd edək ki, "Dövlət və Din" jurnalı 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (AAK) tərəfindən dinşünaslıq, dinin tarixi və fəlsəfəsi ixtisasları üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısına daxil edilib. Buna görə də jurnal öz fəaliyyətini AAK-ın qərarları və beynəlxalq standartlara uyğun qurub.

Dövri elmi nəşrlərin elm sahələrinə uyğun olaraq, müəyyən olunmuş beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinin (bazalarının) ən azı birinə daxil edilmələri barədə AAK-ın tələbinə uyğun olaraq, ötən ildən etibarən "Dövlət və Din" jurnalının müvafiq sayları sözügedən indeks sistemlərindən "Directory of Research Journals İndexing" (DRJİ), "Academia.edu" və elibrary.ru axtarış sisteminə daxil edilib. Jurnalın redaksiya heyətinə Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, Qazaxıstan, Özbəkistan, Əlcəzair, ABŞ kimi ölkələrdə fəaliyyət göstərən nüfuzlu alimlər daxildir.

2015-ci ildən mütəmadi olaraq işıq üzü görən jurnalın hazırda 76-cı sayı dərc olunub. Tədqiqatçılarla yanaşı, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş jurnalın bu sayında Azərbaycan, türk və rus dillərində din psixologiyası, sosiologiyası və tarixi, etnik mədəniyyət və tolerantlıq, Azərbaycan tarixi və maarifçilik fəaliyyəti kimi mövzulara yer verilib. Məqalələrlə üç dildə fəaliyyət göstərən https://www.dovlet-din.az/az saytında tanış olmaq mümkündür.




Həmçinin qeyd edək ki, hazırda jurnalın bu il üçün nəzərdə tutulan sonuncu — 3-cü sayına məqalələrin qəbulu açıqdır.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın ataşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qəlbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*



## Ağayev Ramiz İmamverdi oğlu

Şəhid Ağayev Ramiz İmamverdi oğlu 1993-cü ilin iyulun 25-də Bakı şəhəri Binəqədi rayonunun Biləcəri qəsəbəsində doğulub. O, 1999-2010-cu illərdə Biləcəri qəsəbəsində yerləşən Seymur Məmmədov adına 301 nömrəli tam orta məktəbdə təhsil alıb. Orta təhsilini bitirdikdən sonra 2011-ci ilin iyulunda Binəqədi rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb və Daxili Qoşunların "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Əsgər kimi öz öhdəsinə düşən vəzifələri vaxtında və dəqiq yerinə yetirən Ramiz "çavuş hazırlığı" kursuna göndərilib. O, kursu müvəffəqiyyətlə bitirib hərbi xidmətini "çavuş" kimi davam etdirib.

Həqiqi hərbi xidmətdə olan qəhrəmanımız uşaqlıqdan arzuladığı peşəyə – hərbçi olmağa qərar verir. O, hərbçi kimi daim təlimlərdə iştirak edir, müxtəlif mükafatlara layiq görülür. Xidmətinin 7 ilini paytaxtdakı hərbi hissələrin birində keçirən qəhrəmanımız daha sonra Daxili Qoşunların Quba rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətinə davam edir. Və bu illərdə o, Daxili Qoşunların Xüsusi Təyinatlı dəstəsinin hərbi qulluqçusu kimi iştirak etdiyi təlimlərdə öz işinin peşəkarı olduğunu sübut edərək bir çox nailiyyətlər qazanıb.

2020-ci ilin sentyabrın 27-də Ramizin döyüş yolu Kəlbəcər rayonunun Murov yüksəkliklərindən başlayıb. Müharibənin ilk günü Murovda yerləşən düşmən postları darmadağın edilərək yüksəkliklər ələ keçirilib.

Daha sonra oktyabrın 3-də qəhrəmanımız xidmət etdiyi bölmənin tərkibində Cəbrayıl istiqamətindən döyüşlərə davam edib. O, Cəbrayıl şəhəri uğrunda gedən döyüşlərdə və şəhərin işğaldan azad edilməsində xüsusi fəallığı ilə seçilib. Füzuli istiqamətində gedən döyüşlərdə igidlik nümayiş etdirən Ramiz xeyli sayda düşmən hərbçisini məhv edib, özü isə çiyin və boğaz nahiyələrindən 3 mərmi yarası alır. Yaralanmasına baxmayaraq, bir müddət döyüş meydanında döyüşür. Yarası ağır olduğundan, hərbi hospitala yerləşdirilir. Lakin öz istəyi ilə çiynində olan mərmi çıxarılmadan təkrar döyüşlərə qayıdır. Xocavənd rayonunun bir neçə kəndinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edir. Qəhrəman döyüşçümüz Ramiz Ağayev 2020-ci il noyabrın 5-də Daşaltı kəndini işğaldan azad edən qrupların tərkibində Şuşa şəhərinə ilk daxil olan hərbçilərimizdən idi. O, 2020-ci ilin noyabrın 7-də Şuşa şəhərində növbəti dəfə aldığı qəlpə yarasından şəhid olub. Şəhid Ramiz Ağayev 2-ci Fəxri Xiyabanda dəfn edilib.

Şəhidimiz subay idi.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə çavuş Ağayev Ramiz İmamverdi oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



## Ağazadə Sənan Nizami oğlu

Şəhid Ağazadə Sənan Nizami oğlu 2000-ci il may ayının 1-də Lənkəran rayonun Göyşaban kəndində anadan olub. O, Səidəli Kazımbəyov adına Lənkəran şəhər 6 nömrəli tam orta məktəbi bitirib. 2019-cu ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Lənkəran rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində hərbi xidmətə başlayan Sənan bu müddət ərzində ixtisasının sirlərinə dərindən yiyələnib. Bir çox əməliyyatlarda iştirak edən Sənan rəis və komandir heyətinin rəğbətini qazanaraq dəfələrlə ən yaxşı əsgər kimi fərqlənib, fəxri fərman və təşəkkürnamələrə layiq görülüb.

O, 1 il 3 ay xidmət etdikdən sonra Vətən Müharibəsinə Füzuli istiqamətində qoşulub. Minaatan bölüyündə tuşlayıcı kimi iştirak edib. Hədəfi sərrast nişan alması sayəsində düşmənin bir neçə hərbi texnikasını və canlı qüvvəsini məhv edib. Sənan oktyabrın 14-də qəhrəmancasına şəhid olub. Göyşaban kəndində dəfn edilən qəhrəmanımız subay idi.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə əsgər Ağazadə Sənan Nizami oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.



## Alişanlı Amal Seyfəddin oğlu

Şəhid Alişanlı Amal Seyfəddin oğlu 2001-ci il fevralın 11-də Yardımlı rayonunun Qabaqdibi kəndində dünyaya gəlib. Amalın ailəsi 2002-ci ildən Şirvan şəhərində yaşayıb. Qəhrəmanımız 2007-ci ildə Məftun Osmanov adına Şirvan şəhər 20 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub. 2018-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib.

O, 2019-cu ilin aprelində SHXÇDX-nın Şirvan şəhər şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Amal Silahlı Qüvvələrin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində hərbi xidmətə başlayıb. Daha sonra öz arzusu ilə xidmətinə Xüsusi Təyinatlı Qüvvələrin Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissəsində davam edib.

Bir çox əməliyyatlarda iştirak edən Amal xidmətini bitirdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət etmək arzusunda idi. Ona görə də o, hər zaman xüsusi təyinatlı əsgər kimi döyüş-hazırlıq təlimlərini dərindən öyrənərək, verilən tapşırıqları vaxtında və nöqsansız yerinə yetirib.

Amal təlimlərdə olduğu kimi 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də dəqiqliyi ilə seçilib. Onun ilk döyüşü şəxsi heyətlə birgə Murovdağ istiqamətində baş verib. Belə ki, qəhrəmanımızın da iştirakçısı olduğu əməliyyat uğurla nəticələnib, düşmənə sarsıdıcı zərbələr vurularaq Murov yüksəklikləri düşmən tapdağından azad olunub. 29 sentyabrdan isə cəbhənin cənub istiqamətində gedən qanlı döyüşlərdə fəal iştirakçısı olan Amal Füzuli və Cəbrayıl rayonlarının bəzi kəndlərinin işğaldan azad olunmasında igidliklər göstərib.

Onun son döyüşü 8 oktyabr 2020-ci il tarixdə olub. Füzuli şəhərinin azadlığı uğrunda gedən gərgin döyüşlərdə Amal düşmənin bir neçə əsgər və zabitini məhv etdikdən sonra qəhrəmancasına şəhid olub. Qəhrəmanımız anadan olduğu Yardımlı rayonunun Qabaqdibi kəndində torpağa tapşırılıb.

Şəhidimiz subay idi.

Qəhrəmanlığı və şücaəti ilə adını vətən tariximizin şanlı səhifəsinə əbədi yazan əsgər Alişanlı Amal Seyfəddin oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə, həmçinin "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

Hazırladı: **Ramil Hikmət**

# QISA-QISA

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini oktyabr ayı ərzində də davam etdirmişdir.

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**3 oktyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Astara rayonu Siyakü kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Vəhdət və birlik" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonunun M.Qafarov adına Siyov kənd tam orta məktəbində "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala Rayon İcra Hakimiyyəti (RİH), rayon Gənclər və İdman Sektoru (GİS) və Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Yuxarı Tala kəndi 4 saylı tam orta məktəbində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər İ.Qayıbov adına 1 saylı tam orta məktəbində "Vətənpərvər gəncliyin dini radikalizmə qarşı mübarizəsi" mövzusunda;



**4 oktyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran rayonu Şıxakəran kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lerik RİH-in birgə təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri dini radikalizm və ekstremizm təhlükəsindən qoruyaq!" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Rayon Polis Şöbəsinin (RPŞ) birgə təşkilatçılığı ilə Samux rayonunda isə "Narkomaniya ümumbəşəri bəladır" mövzusunda;

**5 oktyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Qax rayonu GİS-in təşkilatçılığı ilə Qax rayon Qum kənd tam orta məktəbində "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonunun Xanqərənd kənd tam orta məktəbində "Gənclərin yad təsirlərdən qorunmasında təhsilin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, Şəki-Zaqatala Regional Təhsil İdarəsi və Gənclərin İnkişaf və Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə Balakən rayonu akademik Zərifə Əliyeva adına şəhər 3 saylı tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Ağsu RİH, Dağlıq Şirvan Regional Gənclər və İdman İdarəsinin Ağsu rayonu üzrə GİS-in birgə təşkilatçılığı ilə "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda;

**6 oktyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran rayonu Haftoni qəsəbə və Sütəmurdov kənd məscidlərində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lerik RİH-in birgə təşkilatçılığı ilə rayonun Çayrud və Vizəzəmin kənd tam orta məktəblərində; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonunun Yeniyol kənd tam orta məktəbində "İntellektli gəncliyin yad təsirlərlə mübarizədə rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonu Katex kəndi "Mərkəzi" məscidində "Tolerantlıq və dini sabitlik" mövzusunda;

**9 oktyabr** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Ağcabədi RİH və RPŞ-nin birgə təşkilatçılığı ilə Ağcabədi Pedaqoji Kollecində "Antinarkotik təbliğat sahəsində fəaliyyətin gücləndirilməsi, dini radikalizm və ekstremizm, erkən nikah və onun fəsadları" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı rayonu GİS-in birgə təşkilatçılığı ilə Ərkivan qəsəbəsi Z.Nəcəfov adına 2 saylı tam orta məktəbində "Dini radikalizm və ekstremizmlə mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı "Gənclər Evi" sosial xidmət müəssisəsi və Saatlı rayonu Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "Vətən uğrunda şəhadət ən ali məqamdır" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Daşkəsən RİH və rayon GİS-in birgə təşkilatçılığı ilə Daşkəsən şəhər A.Mürsəlov adına 2 nömrəli tam orta məktəbində; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonu Əlirzalı kənd tam orta məktəbində "Vətənpərvər gəncliyin yad təsirlərə qarşı mübarizəsi" mövzusunda;

**10 oktyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran rayonu Nərimanabad qəsəbə və Boladi kənd məscidlərində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və RPŞ-nin birgə təşkilatçılığı ilə Samux rayonu Zazalı kənd tam orta məktəbində "Radikal dini cərəyanlarla mübarizədə maarifləndirmə tədbirlərinin əhəmiyyəti" mövzusunda; DQİDK-nın təşkilatçılığı ilə Zaqatala rayonunun N.Aslanov adına Yengiyan kənd tam orta məktəbində "Heydər Əliyev müasir Azərbaycanın qurucusu" mövzusunda;

**11 oktyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və rayon GİS-in birgə təşkilatçılığı ilə Balakən rayonu Adil Əsgərov adına Qazbinə kənd tam orta məktəbində "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH, İnsan Hüquqları üzrə Müvəkkilin Şimal regional mərkəzi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba, Qusar və Xaçmaz rayonları üzrə qazılığının təşkilatçılığı ilə Quba rayonunda "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonunun Dəliməmmədli şəhəri 1 nömrəli tam orta məktəbində "Radikalizm təhlükəsi və onun yarada biləcəyi fəsadlar" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər Nizami Aydın adına 18 nömrəli tam orta məktəbində "Dini radikalizm və ekstremizmlə mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Qax rayon GİS-in təşkilatçılığı ilə Ləkit kənd tam orta məktəbində "Milli dövlətçiliyin möhkəmlənməsi: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlər" mövzusunda;

**12 oktyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Ombudsmanın Cənub Regional Mərkəzi və Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Masallı rayonu GİS-in birgə təşkilatçılığı ilə Masallı "Gənclər Evi" sosial xidmət müəssisəsində "İnsan hüquqları və azadlıqları: zorakılıq yolverilməzdir" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Cəlilabad rayonu GİS-in birgə təşkilatçılığı ilə "Gender bərabərliyi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonu Faxralı kənd tam orta məktəbində "Vətənpərvər gəncliyin yad təsirlərə qarşı mübarizədə rolu" mövzusunda;

**13 oktyabr** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Bərdə rayonu üzrə Təhsil, Gənclər və İdman sektorlarının birgə təşkilatçılığı ilə Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecində "Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Gənclərin İnkişaf və Karyera Mərkəzi və Naftalan ŞİH-in birgə təşkilatçılığı ilə Heydər Əliyev mərkəzində "Milli-mənəvi dəyərlərimizin təbliğində gənclərin rolu" mövzusunda; DQİDK-ın Quba bölgəsi üzrə şöbəsi, Quba-Xaçmaz Regional



Təhsil İdarəsinin Siyəzən rayonu üzrə Təhsil sektorunun birgə təşkilatçılığı ilə Siyəzən rayonunda "Vətənpərvərlik-müstəqil dövlətimizin əsas sərvətidir" mövzusunda;

**16 oktyabr** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Sumqayıt Şəhər Baş Polis İdarəsinin birgə təşkilatçılığı ilə Sumqayıt şəhəri 24 saylı tam orta məktəbdə "Dini radikalizmin fəsadları" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Füzuli rayonunun Horadiz şəhəri "Əhli-Beyt" məscidində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonu Tatarlı kənd tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**17 oktyabr** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Şəhər Baş Polis İdarəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri Polad Həşimov adına 28 saylı tam orta məktəbində "Gənclərin yad, zərərli dini təsirlərdən qorunması" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş RİH-in birgə təşkilatçılığı Ağdaş Rayon Peşə Məktəbində "Uşaqların humanizm və tolerantlıq ruhunda tərbiyəsinin mənəvi-psixoloji aspektləri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux RPŞ-nin təşkilatçılığı ilə Samux rayonu Eltun İsgəndərov adına Əhmədbəyli kənd tam orta məktəbində "Narkomaniyaya qarşı mübarizədə maarifləndirmə tədbirlərinin əhəmiyyəti" mövzusunda;

**18 oktyabr** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Şəhər Baş Polis İdarəsi, Abşeron-Xızı Regional Təhsil, Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə Sumqayıt şəhəri Şah İsmayıl Xətai adına 30 saylı tam orta məktəbində "Milli-dini dəyərlərimiz və gənclər" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonunun Mastail kənd tam orta məktəbində "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və QMİ-nin Goranboy rayonu və Naftalan şəhəri üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda;

**19 oktyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayonunda "Narkomaniyaya qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmir rayonunda "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Masallı rayon Ərkivan qəsəbəsi C.Cabarlı adına 1 saylı tam orta məktəbində "Dini radikalizm, erkən nikah və insan alveri ümumbəşəri bəladır" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Şəhər Baş Polis İdarəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri Yusif Məmmədəliyev adına 31 saylı tam orta məktəbində "Dini xurafat və dini fanatizm" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəranın Tükəvilə kənd tam orta məktəbində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir rayonu Heydər Əliyev mərkəzinin təşkilatçılığı ilə Kürdəmir rayonunda "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda;

davamı səh. 15

# QISA-QISA

əvvəli səh. 14

DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Şəhər Baş Polis İdarəsi və Abşeron-Xızı regional gənclər və idman, təhsil idarələrinin təşkilatçılığı ilə Sumqayıt şəhəri şəhər 2 saylı tam orta məktəbində "Dini dünyagörüşü müxtəlifliyi və tolerantlıq" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağcabədi RPŞ-nin təşkilatçılığı ilə rayonun Hindarx qəsəbəsi 2 saylı ümumi orta məktəbində "Antinarkotik təbliğat sahəsində fəaliyyətin gücləndirilməsi, dini radikalizm və ekstremizm, erkən nikah və onun fəsadları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və RPŞ-nin təşkilatçılığı ilə Ucar rayonu Rəstəcə kənd tam orta məktəbində "Dini radikalizm və onun tarixi kökləri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər Nadir Hüseynov adına 38 nömrəli tam orta məktəbində "Vətənpərvər gəncliyin yad təsirlərə qarşı mübarizəsi" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Rəhim Tağıyev adına Masallı Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK və Qobustan RİH-in təşkilatçılığı ilə Qobustan rayonu A.O.Çernyayevski adına




şəhər 1 saylı tam orta məktəbində "Dövlətçilik, milli birlik, həmrəylik, vətənpərvərlik" mövzusunda;

**20 oktyabr** – DQİDK-nın Quba bölgəsinin təşkilatçılığı ilə Quba rayonunda "Heydər Əliyev və Azərbaycanda multikultural dəyərlər" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Lənkəranda yerləşən "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Göyçay RİH, RPŞ və Təhsil Sektorunun təşkilatçılığı ilə Göyçay rayonu N.İsmayılov adına Bığır kənd 3 saylı tam orta məktəbində; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və GİS-in təşkilatçılığı ilə Goranboy rayonunda "Gəncliyimizi və gələcəyimizi narkomaniyadan qoruyaq" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhər 3 saylı peşə məktəbində "Gəncləri zərərli vərdişlərdən qoruyaq" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gədəbəy rayonu peşə liseyində "Uşaq hüquqlarının qorunması, erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda;

**23 oktyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala İslam Kollecində "Uşaqların təhsildən yayındırılmasına qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran rayonu Gərmətük qəsəbə, Horavenc, Zövlə kənd məscidlərində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonu Pirəsora kənd məscidi və Pirəsora kənd tam orta məktəbində; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göygöl Topalhəsənli kənd tam orta məktəbində "Narkomaniyaya qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Xızı RİH və İnsan hüquqları üzrə müvəkkilin Şimal regional mərkəzinin təşkilatçılığı ilə Xızı şəhər Rafiq İsmayılov adına tam orta məktəbində "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayonu Yuxarı Ağasıbəyli kənd tam orta məktəbində "Erkən nikahın fəsadları" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yardımlı şəhər V.Nəciyev adına 4 saylı tam orta məktəbində isə "Erkən nikah: hüquqi və mənəvi müstəvidə" mövzusunda;

**24 oktyabr** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Zərdab rayon Heydər Əliyev Mərkəzi və GİS-in təşkilatçılığı ilə Zərdabda "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Şəhər Baş Polis İdarəsinin təşkilatçılığı ilə Sumqayıt şəhər 1 saylı peşə məktəbində "Narkomaniyanın mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə Kürdəmirdə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və GİS-in təşkilatçılığı ilə Balakən şəhər Nəsimi adına 1 saylı tam orta məktəbində "Uşaq hüquqlarının qorunması: erkən nikah və onun fəsadları" mövzusunda;

**26 oktyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH, İnsan hüquqları üzrə Müvəkkilin Şimal regional Mərkəzi və Quba Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev tarix yazan əbədiyaşar liderdir" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan RİH-in təşkilatçılığı ilə Beyləqanda "Erkən nikah: hüquqi və mənəvi müstəvidə" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Penitensiar Xidmətin təşkilatçılığı ilə Bakı 4 saylı cəzaçəkmə və tərbiyə müəssisələrində "Uşaqların mənəvi inkişafının onların gələcəyinə təsiri" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Cəlilabad rayonunun Muğan kənd 3 saylı tam orta məktəbində "Erkən nikah və onun fəsadları" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cənub Regional Mərkəzinin təşkilatçılığı ilə Lənkəran rayonunun Separadi kənd tam orta məktəbində "Uşaq hüquqları aylığı" çərçivəsində; DQİDK-nın təşkilatçılığı ilə Şəki şəhər 12 nömrəli tam orta məktəbində "Uşaqların təhsildən yayındırılmasına qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; Kürdəmir rayonu Şıxımlı kəndində "Uşaqların təhsildən yayındırılması-



na qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı şəhər V.Əsgərov adına 4 nömrəli tam orta məktəbində "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir ŞİH-in təşkilatçılığı ilə Mingəçevir Turizm Kollecində "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər 7 nömrəli tam orta məktəbində "Vətənpərvər gəncliyin dini radikalizmə qarşı mübarizəsi" mövzusunda;

**27 oktyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Cəlilabad rayonu GİS və rayon təhsil sektorunun təşkilatçılığı ilə Cəlilabad şəhəri Akademik Zərifə Əliyeva adına 7 saylı tam orta məktəbdə "Vətəni sevmək imandandır" mövzusunda; DQİDK-nın müvafiq bölgə şöbəsinin təşkilatçılığı ilə Şəki şəhər 3 nömrəli



tam orta məktəbdə "Erkən nikah: hüquqi və mənəvi müstəvidə" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Tərtər RİH və Tərtər şəhər "Cümə" məscidi dini icmasının birgə təşkilatçılığı ilə rayonu Əskipara kənd məscidində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda;

**30 oktyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Naftalan şəhəri Uşaq-Gənclər İdman məktəbində "Uşaqların təhsildən yayındırılmasına qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin təşkilatçılığı ilə Xətai rayonundakı 264 nömrəli məktəb-liseydə "Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin hamisidir" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəmkir Peşə liseyində "Erkən nikah: hüquqi və mənəvi müstəvidə" mövzusunda; İmişli rayonunda "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Füzuli rayonu "Mahmudlu-2" kənd məscidində "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Göygöl RİH və Ombudsmanın Qərb Regional Mərkəzinin təşkilatçılığı ilə Göygöl rayonunda "İnformasiya əldə etmək hüququ və zərərli informasiyalardan qorunmağın əhəmiyyəti" mövzusunda;

**31 oktyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə Dövlət İqtisad Universitetinin Zaqatala filialında "Azərbaycanda tolerantlıq, sülh şəraitində birgəyaşayış" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab rayon peşə liseyində "Narkomaniya sərhədsiz fəlakətdir" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin təşkilatçılığı ilə Kürdəmir rayonunda "Zəfər günü: milli və mənəvi həmrəyliyin Şuşa zirvəsi" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran rayonunun Vilvan və Astara rayonunun Şuvi kəndi "Cümə" məscidlərində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda baş tutub.

Çıxışlarda respublikamızda mövcud olan tolerant və multikultural şəraitdən, milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində görülən işlərdən bəhs olunub. Natiqlər Ulu Öndər Heydər Əliyevin xalqımızın milli-mənəvi və dini dəyərlərinin qorunmasındakı xidmətlərinə diqqət çəkiblər. Dahi şəxsiyyətin xalqımız qarşısındakı misilsiz xidmətlərindən geniş bəhs edərək onun zəngin irsinin və çoxşaxəli fəaliyyətinin hər bir Azərbaycan vətəndaşı üçün nümunə olduğunu bildiriblər. Çıxışçılar qeyd ediblər ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan ölkəmizin dövlət-din münasibətləri modeli bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Həmçinin çıxışlarda dini radikalizm və ekstremizmlə mübarizədə milli-mənəvi dəyərlərimizin rolu mövzusuna da toxunulub. Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı görülən tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, İslam dinində insan həyatına verilən dəyərdən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan tədbirlərdə qarşılıqlı diskussiyalar aparılıb, iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

CƏMİYYƏT və DİN

№ 10 (384) OKTYABR 2023-cü il


# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

**«Balakən rayonu Mollaçı kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 23 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 482

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən «Balakən rayonu Mollaçı kənd məscidi» dini icmasının adı «Balakən rayonu Mollaçı kənd məscidi» dini icması kimi Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən (Dini qurumların dövlət reyestri) çıxarılmış, həmin dini icmanın adı «Balakən rayonu Mollaçıbinə kənd məscidi» dini icması kimi Qeyri-kommersiya qurumlarının dövlət reyestrinə (Dini qurumların dövlət reyestri) daxil edilmişdir.

«Balakən rayonu Mollaçıbinə kənd məscidi» dini icmasının hüquqi ünvanı «Balakən rayonu, Mollaçı kənd məscidi» kimi Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən (Dini qurumların dövlət reyestri) çıxarılmış, həmin dini icmanın hüquqi ünvanı «Balakən rayonu, Mollaçıbinə kənd məscidi» kimi Qeyri-kommersiya qurumlarının dövlət reyestrinə (Dini qurumların dövlət reyestri) daxil edilmişdir.

Mollaçiyev Seyidov Əli oğlu, Molaçiyev Məhəmməd Şəhmir oğlu, Haqverdiyev Məhəmməd Murtuzəli oğlu, Sebixanov Məhəmməd Bəşir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Mollaçiyev İbrahim Məhəmməd oğlu, Vasanov Cavadxan Nurhuda oğlu, Haqverdiyev Abdurrahman İsmayıl oğlu, Əliyev Nəsir Abdulla oğlu, Mollaçiyev Şaban Ramazan oğlu, Şabanov Eldar Rasul oğlu, Mollaçiyev Mehdi Məhəmməd oğlu, Haqverdiyev Hacıyov Məhəmməd oğlu, Əliyev Şaban İsmayıl oğlu, Haqverdiyev Elçin Nəsrəddin oğlu, Vəliyev Nəsrəddin Vəli oğlu, Vəliyev Bəhruz Nəsrəddin oğlu, Mollaçiyev Rəşad Şaban oğlu, Şabanov Vaqif Başir oğlu, Şirinov Çingiz Sədulla oğlu, Şabanov Sərdar Vaqif oğlu, Mollaçiyev Zaur Fərman oğlu, Mollaçiyev İsrafil Daha oğlu, Mollaçiyev Cəmaləddin Seyidov oğlu, Vasanov Anar Əhmədov oğlu, Qurbanov Ziyaməddin İmran oğlu, Osmanova Gülnamə Sədulla qızı, Osmanov Vüqar Əsəbəli oğlu, Qurbanova Könül Məmmədşəfi qızı, Mollaçiyeva İlhamə İslam qızı, Əliyev Şəhmir Əli oğlu, Mollaçiyev Ruslan Rövşən oğlu, Mollaçiyev Rasim İbrahimxəlil oğlu, Vasanova Məryəm Məzahir qızı, Süleymanov Nazim Əziz oğlu, Mollaçiyeva Samirə Qüdrət qızı, Havalayev Elvin Cəbrayıl oğlu, Mollaçiyev İsmayıl Ramazan oğlu, Mollaçiyev Şamil İsmayıl oğlu, Vasanova Şöhrət Nurullah qızı, Vasanov Şaban Məhəmmədkamil oğlu, Haqverdiyeva Oksana Fikrətovna, Süleymanov Güloğlan Əziz oğlu, Alqayev Mehman Bəşir oğlu, Xəlilov Mehman Niyazi oğlu, Ovçiyeva Xalidə Tacəddin qızı, Mollaçiyev Şaban Məhəmməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 24 oktyabr 2023-cü il

# XRİSTOFOR KOLUMBUN MƏKTUBU HƏRRACDA 3,92 MİLYON DOLLARA SATILIB



İtaliyalı məşhur səyyah Xristofor Kolumbun yazdığı məktub hərracda 3,92 milyon dollara satılıb.

"Christie's" hərrac evində satışa çıxarılan "Yeni kəşf edilmiş adalar" adlı məktubda Kolumb Amerikaya ilk səyahətindən sonrakı kəşfləri və "Hind adaları"nda tanış olduğu insanlar haqqında danışır. Kolumbun 1493-cü ildə yazdığı, İspaniya Kralı II Ferdinand və Kraliça İzabellaya ünvanladığı "Kolumbun məktubu" adlandırılan məktub səkkiz səhifədən ibarətdir. Bu, "Kolumbun məktubu"nun yeganə mövcud nüsxəsi deyil və oxşar nüsxə hazırda Nyu-York Kitabxanasında qorunur. Lakin o, indiyə qədər şəxsi əllərdə qalan nüsxələrdən biri hesab olunur.

Məktubun saxta və ya oğurluq olmadığını yoxlamaq üçün araşdırmalar aparılır.

Qeyd edək ki, Toskana əyalətinin Markiana qəsəbəsindən oğurlanmış və Dallas kolleksiyaçısının əlinə keçən məktubun başqa bir versiyası iyul ayında İtaliyaya geri qaytarılıb.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Noyabr - 2023)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:48 | 07:10 | 12:24 | 15:57 | 17:53 | 18:54 |
| 2 | 05:49 | 07:11 | 12:24 | 15:56 | 17:52 | 18:53 |
| 3 | 05:50 | 07:12 | 12:24 | 15:54 | 17:50 | 18:52 |
| 4 | 05:51 | 07:13 | 12:24 | 15:53 | 17:49 | 18:51 |
| 5 | 05:52 | 07:14 | 12:24 | 15:52 | 17:48 | 18:50 |
| 6 | 05:53 | 07:15 | 12:24 | 15:51 | 17:47 | 18:49 |
| 7 | 05:54 | 07:17 | 12:24 | 15:50 | 17:46 | 18:48 |
| 8 | 05:55 | 07:18 | 12:24 | 15:49 | 17:45 | 18:47 |
| 9 | 05:56 | 07:19 | 12:24 | 15:48 | 17:44 | 18:47 |
| 10 | 05:57 | 07:20 | 12:24 | 15:47 | 17:43 | 18:46 |
| 11 | 05:58 | 07:21 | 12:24 | 15:46 | 17:42 | 18:45 |
| 12 | 05:59 | 07:22 | 12:24 | 15:45 | 17:41 | 18:44 |
| 13 | 06:00 | 07:24 | 12:25 | 15:45 | 17:41 | 18:43 |
| 14 | 06:01 | 07:25 | 12:25 | 15:44 | 17:40 | 18:43 |
| 15 | 06:02 | 07:26 | 12:25 | 15:43 | 17:39 | 18:42 |
| 16 | 06:03 | 07:27 | 12:25 | 15:42 | 17:38 | 18:41 |
| 17 | 06:04 | 07:28 | 12:25 | 15:41 | 17:37 | 18:41 |
| 18 | 06:05 | 07:29 | 12:25 | 15:41 | 17:37 | 18:40 |
| 19 | 06:06 | 07:31 | 12:26 | 15:40 | 17:36 | 18:40 |
| 20 | 06:07 | 07:32 | 12:26 | 15:39 | 17:35 | 18:39 |
| 21 | 06:08 | 07:33 | 12:26 | 15:39 | 17:35 | 18:38 |
| 22 | 06:09 | 07:34 | 12:26 | 15:38 | 17:34 | 18:38 |
| 23 | 06:10 | 07:35 | 12:27 | 15:38 | 17:34 | 18:38 |
| 24 | 06:11 | 07:36 | 12:27 | 15:37 | 17:33 | 18:37 |
| 25 | 06:12 | 07:37 | 12:27 | 15:37 | 17:33 | 18:37 |
| 26 | 06:13 | 07:38 | 12:28 | 15:36 | 17:32 | 18:36 |
| 27 | 06:14 | 07:39 | 12:28 | 15:36 | 17:32 | 18:36 |
| 28 | 06:15 | 07:41 | 12:28 | 15:35 | 17:31 | 18:36 |
| 29 | 06:16 | 07:42 | 12:29 | 15:35 | 17:31 | 18:36 |
| 30 | 06:17 | 07:43 | 12:29 | 15:35 | 17:31 | 18:35 |

# MİSİRDƏKİ MƏBƏDDƏ ASTROLOGİYA RELYEFLƏRİ AŞKAR EDİLİB



Misir-Alman birgə arxeoloji missiyası Luksordakı Esna məbədinin divarlarında və tavanlarında göy cisimlərini və bürcləri təmsil edən tanrı və ilahələr də daxil olmaqla, astrologiya səhnələrini əks etdirən daha orijinal relyef və oymalar aşkar edib.

"Əl-Əhram" nəşri xəbər verir ki, bu rəsm və oyma işləri məbədin davam edən bərpası zamanı aşkar olunub. Missiya Nil daşqının başlanğıcında qədim Misir ilahəsi Sopdet və dörd qoç başı ilə təsvir edilmiş günəş tanrısı Xnum-Reni əks etdirən başqa bir səhnəni də üzə çıxarıb.

Alman missiyasının rəhbəri Kristian Leitz bildirib ki, bu relyefin əsas mövzusu Orion və Sopdetdir. Onun sözlərinə görə, ən parlaq ulduzu Rigel olan müasir Orion bürcünü təşkil edən kəhkəşan Osiris tanrısı ilə əlaqələndirilir. Sopdet Osirisin bacısı ilahə İsisin təmsilçisi olan qədim Misir ilahəsinin yunanca adıdır. Bu ilahə səmanın ən parlaq ulduzu olan Sirius ilə əlaqələndirilir, onun 70 günlük fasilədən sonra göy üzündə yenidən görünməsi iyulun ortalarında Nil çayının daşmasının əlamətidir. "Bu, həm də qədim Misir təqvimində Yeni ilin ilk gününü bildirir", - deyə alman arxeoloq vurğulayıb.

Məşhur Esna məbədinin ziyarətçiləri indi yeni səhnələrə heyran olacaqlar. Onların arasında məbədin sütunlu zalının tavanında tapılan zodiak relyefinin olduğu da bildirilir. Burada on iki bürcün hamısının işarəsi, Yupiter, Saturn və Marsın xaricindəki planetlər, həmçinin qədim misirlilərin vaxtı ölçmək üçün istifadə etdikləri "yeddi ox" adlanan bürclərin təsvirləri də var. Bununla yanaşı, məbədin girişinin üstündə iki cərgədə dayanan və 46 qartalı əks etdirən relyef mövcuddur, bəzilərində qədim Misir ilahəsi Nexbetin, digərlərində isə ilahə Vadgetin başlarının təsviri var.

Qoç başlı tanrı Khnum-Re və digər qədim Misir tanrılarına həsr olunmuş Esna məbədinin tikintisi Roma dövründə imperator Klavdinin (41-54-cü illər) dövründə başlanıb və İmperator Desiusun hakimiyyəti illərində (249-251) tamamlanıb. Məbəd XIX-XX əsrlərdə Misirin işğalı nəticəsində zərər görüb. Osmanlı valisi Məhəmməd Əli Paşanın dövründə (1805-1840) məbədin pambıq anbarı kimi istifadə edildiyi bildirilir.

**Yadigar söz**

***Cübran Xəlil Cübran***

*Gözəlliyin hüdudlarından kənarda nə din var, nə elm.*


Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894